QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 023 (6223) 6 fevral 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezident İlham Əliyev pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə Sərəncam imzalayıb



Prezident İlham Əliyev pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2021-ci il 1 yanvar tarixinə 2020-ci il üzrə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin müəyyən etdiyi orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 2021-ci il 1 yanvar tarixinədək təyin edilmiş bütün növ əmək pensiyalarının sığorta hissəsinin və istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində 2021-ci il 1 yanvar tarixinədək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirmək tapşırılıb. Sərəncamdan irəli gələn məsələlərin həlli üçün Nazirlər Kabinetinə də tapşırıq verilib.

## YAP Avropa Xalq Partiyasına etiraz məktubu ünvanlayıb

Bax 4

## İqor Korotçenko: Rusiya Ermənistandan Njdenin heykəlinin sökülməsini tələb etməlidir



Rusiya rəsmi səviyyədə Ermənistandan Qaregin Njdenin heykəlinin sökülməsini tələb etməlidir. AZƏRTAC xəbər verir ki, bunu Rusiyanın "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko özünün "Telegram" kanalında yazıb. Ekspert qeyd edib ki, Rusiya nasistlərə satılmış hərbi cinayətkar Qaregin Njdenin heykəlinin sökülməsini Ermənistandan...

Bax 3

## YAP-ın nümayəndəsi xüsusi videokonfransda iştirak edib



Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) Gənclər Qolunun "Təhsil və sosial müdafiə mexanizmləri COVİD-19 pandemiyası dövründə və sonra" mövzusunda xüsusi videokonfransı keçirilib...

Bax 4

## "Növbəti artım ümumilikdə 1 milyon 140 min pensiyaçını əhatə edir"

Bax 4



## Minatəmizləmə işləri elə aparılmalıdır ki, qısa müddətdə bərpa işlərinə start verilsin




Dövlətimizin başçısı İlham Əliyev bugünlərdə Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən prioritetlər sırasında Azərbaycanda minatəmizləmə əməliyyatları üzrə milli standartların...

Bax 9

## Tonoyanın "qazandığı" indi Paşinyanın başında sınır



Bax 7

## Azərbaycanlı hüquq müdafiəçisi Solovyovu məhkəməyə verdi



Bax 8

## Koçaryan Moskvada kimlə görüşəcək?



Bax 6

# Vətəndaşların mənafeyi dövlət başçısının siyasətinin prioritetidir

*Prezident İlham Əliyev Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunan Vüqar Süleymanovdan da bunu tələb edib*



***Prezidenti İlham Əliyev fevralın 4-də Vüqar Süleymanovu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bir neçə mühüm məqamalara toxunub, tapşırıq və tövsiyələrini verib: "Siz Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin edilirsiniz.***

Sizə böyük etimad göstərilir. Azad edilmiş torpaqların minalardan təmizlənməsi işi birinci dərəcəli vəzifədir. Bu işlər elə aparılmalıdır ki, işlər başa çatandan sonra hər hansı bir bədbəxt hadisə baş verməsin". "Əfsuslar olsun ki, azad edilmiş torpaqlarda son günlər bədbəxt hadisələr baş verir. Mən Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, onlardan xahiş edirəm ki, azad olunmuş torpaqlara icazəsiz, qanunsuz getməsinlər",-deyə dövlət başçısı bildirərək vurğulayıb ki, minalardan təmizlənmə işləri bitdikdən sonra bu baş verə bilər: "Mən insanların bu addımlarını bir tərəfdən başa düşürəm, onlar uzun illər vətən həsrəti ilə yaşamışlar, hər bir keçmiş məcburi köçkün tezliklə öz doğma torpağına, doğma kəndinə qayıtmaq istəyir, ancaq xahiş edirəm ki, gözləsinlər. Bir qədər gözləsinlər ki, minalardan təmizləmə işləri başa çatsın. Çünki bu, böyük təhlükədir, həm piyadalara, həm avtomobillərə böyük təhlükədir. Müharibədən sonra bir neçə belə bədbəxt hadisə baş verib, insanlar həlak olub, yaralanıb. Eyni zamanda, postlarda dayanan əməkdaşlar da nəzarət işlərini daha ciddi təşkil etməlidirlər ki, azad edilmiş torpaqlara qanunsuz, icazəsiz gedişə son qoyulsun".

Mənfur düşmənin işğaldan sonra hər tərəfi minaladığını qeyd edən dövlət başçısı deyib: "Təkcə təmas xəttinə yaxın olan əraziləri yox, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri minalayıb və bizdə mina sahələrinin xəritələri yoxdur. Ona görə, bizim istehkamçıların üzərinə çox böyük vəzifə düşür. Onlar bu vəzifəni elə icra etməlidirlər ki, azad olunmuş torpaqları tamamilə minalardan təmizləyə bilsinlər".

### "Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir"

Prezident İlham Əliyev azad edilmiş torpaqlarda minatəmizləmə işlərinin birinci dərəcəli vəzifə olduğunu deyib: "Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə, biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın".

### Azərbaycan Prezidenti Minatəmizləmə Agentliyinin sədrinə tapşırıqlar verib

Dövlət başçısı, Agentliyin qarşısında böyük vəzifələr durduğunu qeyd edərək işlərini düzgün təşkil etmələrini tövsiyə və tapşırıqlarını verib: "İlk növbədə, işin düzgün təşkil edilməsi məsələsinə diqqət yetirməlisiniz. Təşkilatlanma işi düzgün həll edilməlidir. Yaradılan yeni agentlik dövlət agentliyidir. Əlbəttə ki, ilk növbədə, peşəkar kadrlar seçilib agentliyin işinə cəlb edilməlidir. Təbii ki, keçmiş ANAMA qurumunun kadrlarından istifadə edilməlidir, eyni zamanda, agentliyin say tərkibi də müəyyən olunmalıdır. Çünki azad edilmiş torpaqlarda işləri sürətlə, keyfiyyətlə qurmaq və aparmaq üçün əlbəttə ki, agentliyin daha da böyük işçi qüvvəsi olmalıdır".

### "Dünyanın aparıcı istehsalçıları olan şirkətlərin ən müasir texnikası ölkəmizə gətirilməlidir"

Prezident İlham Əliyev vurğulayıb ki, əsas vəzifələrdən biri də yeni texnikanın alınmasıdır: "Son illərdə bu sahədə texnoloji inkişaf özünü qabarıq şəkildə büruzə verir. İndi elə maşınlar, mexanizmlər, texnika var ki, işi həm sürətləndirir, həm də keyfiyyətlə aparmağa imkan verir. Ona görə, baxın, dünyanın aparıcı istehsalçıları olan şirkətlərin ən müasir texnikası ölkəmizə gətirilməlidir. Çünki işin keyfiyyəti və sürəti bundan asılı olacaq. Bizim keçmiş köçkünlərimiz 30 il vətən həsrəti ilə yaşayıblar. Ona görə minatəmizləmə işləri elə aparılmalıdır ki, biz qısa müddət ərzində bərpa işlərinə start verə bilək və beləliklə, vətəndaşlar inşaat işləri başa çatandan sonra öz torpaqlarına qayıda bilsinlər".

Dövlət başçısı peyk görüntülərindən səmərəli istifadə etməyi vacib sayaraq bildirib ki, bu, bərpa işlərində əlavə imkanlar yaradacaq: "Peyk görüntüləri bizə əlavə imkanlar yaradır, həm müharibə dövründə, həm də müharibədən sonra təbii ki, bərpa işlərində. Biz ermənilər tərəfindən qırılmış meşələrin həcmini məhz peyklərdən müəyyən edə bilmişik və indi yerlərdə bunu təsdiq edirik",-deyən dövlət başçısı bildirib.

"Peyk görüntüləri, eyni zamanda, minalarla daha çox çirklənmiş yerləri də təsbit edir. Ona görə bu imkanlardan da səmərəli istifadə etməliyik", - deyə dövlətimizin başçısı vurğulayıb.

### "Minatəmizləmə Agentliyinin elə imkanı olmalıdır ki, bu agentlik ümumi işimizə böyük töhfə versin"

Müharibə başa çatandan sonra Müdafiə Nazirliyi tərəfindən əlavə istehkamçı taborlar yaradıldığını diqqətə çatdıran dövlət başçıs deyib: "Azad edilmiş torpaqlarda minalardan təmizləmə işi ilə bağlı mənə müntəzəm olaraq məlumat verilir və bu günə qədər işin təqribən 80-90 faizini Müdafiə Nazirliyinin istehkamçıları görüblər. Amma sizin rəhbərlik edəcəyiniz agentlik bundan sonra işin əsas hissəsini öz üzərinə götürməlidir. Əlbəttə, Müdafiə Nazirliyinin istehkamçıları bundan sonra da çalışacaqlar. Çünki işin həcmi kifayət qədər böyükdür. Ancaq Minatəmizləmə Agentliyinin elə imkanı olmalıdır ki, bu agentlik ümumi işimizə böyük töhfə versin".

Prezident İlham Əliyev əvvəlki agentliyin texniki təchizatı və say tərkibinin aşağı səviyyədə olduğunu deyib: "Əgər biz bu işi onların öhdəsinə buraxsaydıq, bilinmir neçə il lazım olacaqdı. Bizim vaxtımız yoxdur. Biz keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytarmalıyıq. Ancaq hər kəs bilməlidir ki, birinci dərəcəli məsələ minalardan təmizləmədir".

Bu fikirləri Prezident İlham Əliyev Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən söyləyib.

Dövlətimizin başçısı deyib: "Dəyən ziyanın qiymətləndirilməsi, infrastruktur layihələrinin icrası, evlərin tikilməsi, iş yerlərinin yaradılması - əgər bu işlər görülməsə, insanlar gedib o torpaqlarda necə yaşaya bilərlər? Gərək ev-eşiyi, şəraiti, suyu, elektriki, yolu, məktəbi, xəstəxanası olsun. Bu, böyük, genişmiqyaslı bir işdir. Mənfur düşmən işğal edilmiş və azad olunmuş torpaqlarda hər şeyi dağıdıb. Hətta son günlərə qədər yaşadıqları evləri də çıxarkən məhv edib, yandırıb, ağacları qırıb, xüsusilə Kəlbəcər və Laçın rayonlarında".

Prezident qeyd edib ki, azad olunmuş ərazilərdə bütün infrastruktur, binalar yerlə-bir edilib. Ona görə hər kəs başa düşməlidir ki, bu işin miqyası nə qədər böyükdür və Azərbaycan bərpa işlərinə təkbaşına start verib. Prezident bərpa işlərinə heç kimdən yardım gözləmədən start verilərək, bütün işlərin plan üzrə getdiyini deyib: "Ona görə, siz Müdafiə Nazirliyi ilə sıx əməkdaşlıq etməlisiniz, onlarla görüləcək işlərin cədvəlini birgə tutmalısınız, hansı sahələr daha əvvəl təmizlənməlidir, yəni, burada da metodologiya var, dünya metodologiyası var, peyk təsvirləri var".

*Ardı Səh. 3*

# Vətəndaşların mənafeyi dövlət başçısının siyasətinin prioritetidir

*Prezident İlham Əliyev Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunan Vüqar Süleymanovdan da bunu tələb edib*

Əvvəli-Səh-2

"Bildiyiniz kimi, Ermənistan minalanmış sahələrin xəritələrini bizə verməyib, ona görə burada peyk təsvirləri önəmli rol oynaya bilər. Eyni zamanda, mən hesab edirəm ki, biz özəl şirkətləri bu işlərə cəlb etməliyik. Mən artıq göstəriş vermişəm, indi xarici şirkətlərlə danışıqlar gedir. Hesab edirəm ki, onları cəlb etmək işimizi yüngülləşdirmək üçün önəmli addım olacaqdır. Hesab edirəm ki, bununla paralel olaraq, yerli şirkətlər də yarana bilər. Çünki bizdə bu vaxta qədər belə təcrübə olmamışdır. Ancaq işin həcmini nəzərə alaraq, mən hesab edirəm ki, özəl şirkətlər yarana bilər, Azərbaycanın biznes dairələri burada öz sözünü deyə bilər və beləliklə, biz bu işləri daha qısa müddət ərzində görə bilərik", - deyə dövlət başçısı vurğulayıb.

Prezident qeyd edib ki, bu özəl şirkətlər müvafiq texnika ilə təmin edilməlidir. Eyni zamanda, Minatəmizləmə Agentliyi onlara sertifikatlar da verməlidir, onlar akkreditasiyadan keçməlidir. Həmçinin, xarici şirkətlərlə birgə müəssisələr də yaradıla bilər.

### "Minatəmizləmə əməliyyatları üzrə milli standartlar hazırlanmalıdır"

Prezident onu da bildirib ki, biz minatəmizləmə əməliyyatları üzrə milli standartlar hazırlamalıyıq: "Yəni, bu, Azərbaycan standartları olmalıdır, əlbəttə ki, dünya praktikasına da baxmaq lazımdır. Hesab edirəm ki, bizim azad edilmiş ərazilərdə olan bu minalanmanın həcmi bəlkə də dünya miqyasında ən böyük dərəcələrdən biridir",-deyən dövlət başçımız təmizləmə işlərinin ardıcıllıqla aparılmasını, prioritetlərin düzgün müəyyən olunmasını tapşırıb: "Siz bu prioritetləri də Operativ Qərargahla mütləq razılaşdırın. Çünki bu prioritetlər bizim bərpa işlərimizlə də uzlaşmalıdır. İlk növbədə, misal üçün, infrastruktur obyektləri - indi yollar çəkilir, mütləq o sahədə minatəmizləmə işləri aparılmalıdır, hava limanı tikilir, orada da indi bu işlər aparılır, elektrik xətləri çəkilir, yol boyunca bu işlər görülməlidir".

Yaşayış məntəqələrinə gəldikdə isə, ilk növbədə, şəhərlərin bərpa edilməli olduğunu bildirən Prezident İlham Əliyev deyib: "Ona görə, bütün şəhərlərin əraziləri birinci növbədə minalardan təmizlənməlidir. Bununla paralel olaraq, yaxın gələcəkdə bəzi kəndlərdə bərpa işlərinə start veriləcək və mən artıq bunu bildirmişəm. Biz indi "ağıllı kənd" konsepsiyasını da hazırlayırıq. Bu konsepsiya demək olar ki, hazırdır, mənə məruzə edildi, mən bunu təsdiqlədim. "Ağıllı kənd" birinci pilot layihəsi icra ediləcəkdir. Məhz o yerlər də düzgün təsbit edilməlidir".

### "Əkin sahələrinin və bu sahələrə gedən yolların minalardan təmizlənməsi də prioritetlər sırasındadır"

"Əkin sahələrinin və əkin sahələrinə gedən yolların təmizlənməsi də prioritetlər sırasındadır. Çünki mənfur düşmən bizim torpağımızı da vəhşicəsinə istismar edib. Azad olunmuş torpaqlarda təkcə taxıl altında 90 min hektar sahədən mənfur düşmən qanunsuz istifadə edib və qanunsuz varlanıb".

Bunu Prezident İlham Əliyev Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bildirib ki, bütün güclər səfərbər olunmalıdır: "Vaxt itirməmək üçün mənim göstərişimlə bütün güclər artıq səfərbər edilib və müharibə başa çatandan sonra mən dərhal bu işlərə start verdim. Deyə bilərəm ki, payızlıq əkin də aparılmışdır. Baxın, müharibə noyabrın 10-da dayandı və biz dekabr ayından payız əkininə başlamışıq. Mənə gündəlik məlumat verilir, 7 min hektarda artıq payız əkini aparılıb. Yəni, bu, yenə də bizim gücümüzü göstərir".

### "Bir sözlə, ən müasir texnologiyalar, ən son model texnika Azərbaycana gətirilməlidir"

"Biz bu torpaqlara qayıtmaq istəyirik və keçmiş köçkünlər, əlbəttə ki, bu arzularla 30 il yaşayıblar. Onların hisslərini başa düşmək olar. Amma, eyni zamanda, onların və onlarla birlikdə olanların təhlükəsizliyi birinci dərəcəli məsələdir. Bu yaxınlarda üç nəfər minaya düşüb, bir nəfər həlak olub. Yəni, o işin təşəbbüskarı var. Təşəbbüsü irəli sürən adam özü də xəsarət alıb, yanında olanlar da. Ona görə, bu, çox ciddi məsuliyyətdir. Ona görə, indi yazlıq əkin üçün sahələrin müəyyənləşdirilməsi prosesi də gedir, torpaqlar müəyyən edilib və o əkin sahələrinə gedən yollar da mütləq prioritetlər sırasında olmalıdır", - deyən dövlət başçısı onu da bildirib ki, inkişaf etmiş ölkələrdə istehsalçılar indi robotlardan geniş istifadə edirlər, biz də bundan istifadə etməliyik: "Bir sözlə, ən müasir texnologiyalar, ən son model texnika Azərbaycana gətirilməlidir. Biz güclü bir qurum yaratmalıyıq, ilk növbədə, onun başlıca vəzifəsi əraziləri minalardan təmizləmək olmalıdır. Bizim Dövlət Minatəmizləmə Agentliyimiz ölkə daxilində bütün işləri başa çatdırandan sonra bu təcrübədən istifadə edərək, xarici ölkələrdə də fəaliyyət göstərə, podratçı kimi işləyə bilər. Beynəlxalq təşkilatlar tərəfindən də bizim bu agentliyin xidmətindən istifadə oluna bilər. Bax, strategiyanı belə qurun. Yəni, bu, agentliyin gələcək fəaliyyəti üçün uzunmüddətli strategiya olmalıdır. Ancaq qısamüddətli və ortamüddətli strategiya torpaqların minalardan təmizlənməsidir ki, bərpa işləri başlansın və vətəndaşlar tezliklə öz doğma torpaqlarına qayıda bilsinlər".

**RƏFİQƏ KAMALQIZI**

# Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstanın ölkəmizdəki səfiri ilə görüşüb

***Fevralın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşüb. SİA xəbər verir ki, spiker qonağı salamlayaraq, Azərbaycanın dost və qardaş Gürcüstanla əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib.***



Qeyd edilib ki, dövlət başçılarının qarşılıqlı səfərləri, aparılan danışıqlar münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Bu gün Azərbaycan və Gürcüstan həyatın ən müxtəlif sahələrində faydalı əməkdaşlıq edirlər. İki ölkə arasında imzalanmış sənədlər əməkdaşlığımızın möhkəm hüquqi bazasını təşkil edir. Bildirilib ki, siyasi dialoqun yüksək səviyyədə olması iqtisadi sahədə yüksək göstəricilərin əldə edilməsinə zəmin yaradıb. Bu gün iki dost və qonşu ölkə olaraq Azərbaycan və Gürcüstan qlobal layihələrin reallaşmasında, bölgədə rifahın bərqərar olunmasında səmərəli fəaliyyət göstərirlər. Sədr qeyd edib ki, parlamentlər səviyyəsində də münasibətlərin dərinləşməsi ümumi məqsədlərə xidmət edir. Deputatlarımızın qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşlərin keçirilməsi tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından çox əhəmiyyətlidir. Biz Azərbaycanın apardığı Vətən müharibəsində - 44 günlük savaş dönəmində Gürcüstanın göstərdiyi mövqeyi yüksək qiymətləndiririk. İnanırıq ki, bu münasibətlər gələcəkdə daha da dərinləşəcək. Səmimi qəbul üçün minnətdarlığını bildirən Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze xalqlarımız arasında münasibətlərin qədim tarixi olduğunu deyib.

Bildirib ki, yüksək səviyyəli siyasi münasibətlərin mövcudluğu xalqlarımızı bir-birinə daha da yaxınlaşdırıb. İqtisadi, mədəni, humanitar sahələrdə də əməkdaşlığımız günbəgün inkişaf edir. Biz parlamentlər səviyyəsində də əlaqələrimizi intensivləşdirmək niyyətindəyik. Qonaq Gürcüstan parlamentinin fəaliyyəti haqqında məlumat verərək deputatların müxtəlif platformalarda görüşlərinin və qarşılıqlı səfərlərinin önəmini vurğulayıb. Bildirilib ki, Gürcüstan Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib, regionda sülhün və əmin-amanlığın bərqərar olması üçün səylərini əsirgəməyib. Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər barədə danışılıb.

*Aysel Məmmədova*

# İqor Korotçenko: Rusiya Ermənistandan Njdenin heykəlinin sökülməsini tələb etməlidir



Rusiya rəsmi səviyyədə Ermənistandan Qaregin Njdenin heykəlinin sökülməsini tələb etməlidir. AZƏRTAC xəbər verir ki, bunu Rusiyanın "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko özünün "Telegram" kanalında yazıb. Ekspert qeyd edib ki, Rusiya nasistlərə satılmış hərbi cinayətkar Qaregin Njdenin heykəlinin sökülməsini Ermənistandan rəsmi şəkildə tələb etməlidir. Əks halda, Ermənistanı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlüyündən xaric etmək və Rusiyanın bu ölkəyə hərbi yardımını dayandırmaq lazımdır.

İ.Korotçenko "Vestnik Kavkaza" agentliyinə müsahibəsində də bu mövzuya toxunaraq qeyd edib ki, Ermənistanda Qaregin Njdeyə heykəl qoyulması, küçələrə və yaşayış məntəqələrinə onun adının verilməsi artıq Ermənistanın keçdiyi qırmızı xətdir. Ekspertin sözlərinə görə, bu, Böyük Vətən müharibəsində həlak olmuş 27 milyon sovet vətəndaşının "ruhuna tüpürmək" deməkdir.

# YAP Avropa Xalq Partiyasına etiraz məktubu ünvanlayıb

Yeni Azərbaycan Partiyası Avropa Xalq Partiyasının (EPP) Siyasi Assambleyasının (PA) 1 fevral 2021-ci il tarixli videokonfransında Azərbaycanla bağlı səsləndirdiyi qərəzli bəyanatla əlaqədar etiraz məktubu ünvanlayıb. SİA-nın verdiyi məlumata görə, məktubda deyilir: "EPP PA üzvlərinin diqqətinə çatdırırıq ki, Azərbaycan 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli bəyanatın şərtlərinə tam əməl edir. Bu çərçivədə Azərbaycanla Ermənistan arasında yüzlərlə hərbi əsir, girov və cəsədlərin mübadiləsi həyata keçirilib və proses beynəlxalq normalara uyğun şəkildə davam etdirilir. Lakin müharibəyə son qoyan 10 noyabr bəyanatından sonra Ermənistandan Azərbaycan ərazilərinə gələrək təxribat-diversiya əməlləri törədən və ələ keçirilən terrorçular müharibə əsirləri hesab oluna bilməz və onların məsələsi müvafiq qanunlar çərçivəsində öz həllini tapacaqdır.

Üstəlik, Azərbaycanın tələblərinə baxmayaraq, Ermənistan tərəfi birinci Qarabağ müharibəsində əsir və girov götürülmüş 4 mindən artıq Azərbaycan vətəndaşının taleyi və onların kütləvi dəfn olunduqları yerlər barədə məlumat verməkdən imtina edir. Ermənistan vəziyyəti düzgün dəyərləndirməli, özünütəcridə gətirib çıxaran əvvəlki səhvlərini təkrarlamamalıdır. Bu baxımdan, beynəlxalq ictimaiyyət üçtərəfli bəyanatın tam icrasına, bölgədə sülhün və etimadın bərqərar olmasına və xalqlarımız arasında barışığa dəstək olmalıdır".

YAP-ın Avropa Xalq Partiyasına ünvanladığı etiraz məktubunda daha sonra qeyd olunur: "Azərbaycan münaqişənin əhatə etdiyi bölgələrdə yaşayan erməni mənşəli vətəndaşlarını özünün siyasi, sosial və iqtisadi məkanına reinteqrasiya etməkdə qərarlıdır və özünün suverenliyi və ərazi bütövlüyü çərçivəsində etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarının bərabər hüquq və azadlıqlarına təminat verir.

Ermənistan işğalının ağır nəticələrini aradan qaldırmaq, bu əraziləri partlamamış sursatlardan təmizləmək, bərpa və yenidənqurma işləri aparmaq çox çətin və böyük resurslar tələb edən işdir. Buna baxmayaraq, Azərbaycan artıq bütün bu işlərə və yüz minlərlə məcburi köçkünün öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətli dönüşü üçün şərait yaratmağa başlayıb. Onu da qeyd etmək lazımdır ki, çoxetnoslu və çoxdinli bir ölkə olaraq özünün mədəni müxtəlifliyi ilə fəxr edən Azərbaycan mənşəyindən asılı olmayaraq, bölgədəki bütün dini və mədəni irsin qorunmasına, bərpasına və istifadəsinə böyük önəm verəcəkdir. EPP PA üzvlərinə birtərəfli bəyanatlar səsləndirməzdən əvvəl məsələ barəsində daha ətraflı informasiya toplamağı tövsiyyə edirik".

# YAP-ın nümayəndəsi xüsusi videokonfransda iştirak edib



Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) Gənclər Qolunun "Təhsil və sosial müdafiə mexanizmləri COVİD-19 pandemiyası dövründə və sonra" mövzusunda xüsusi videokonfransı keçirilib. SİA-nın verdiyi məlumata görə, videokonfransda Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədr əvəzi, Milli Məclisin deputatı, İCAPP-ın Gənclər Qolunun həmsədri Ramin Məmmədov iştirak edib.

Tədbirdə İCAPP Daimi Komitəsinin həmsədri, Filippin parlamentinin keçmiş sədri Xose de Venesia, İCAPP-ın Gənclər Qolunun həmsədrləri, YAP Gənclər Birliyinin sədr əvəzi, Milli Məclisin deputatı Ramin Məmmədov və Malayziya parlamentinin üzvü Dato Deri Şahidan bin Kasım, UNESCO-nun Bankok Ofisinin rəhbərinin müşaviri Canel Bab, Beynəlxalq Əmək Təşkilatının nümayəndəsi Markus Rak və digərləri çıxış ediblər.

Çıxışlarda mövzunun aktuallığı qeyd olunub, pandemiya dövründə təhsil və sosial müdafiə mexanizmlərinin gücləndirilməsinin zəruriliyi, bu istiqamətdə əməkdaşlıq məsələləri müzakirə olunub. Konfrans çərçivəsində gənclərin təhsilinə və məşğulluğuna həsr olunan sessiyalarda müzakirələr aparılıb. Sonda konfransın bəyanatı qəbul edilib.

# DSX-nin Göytəpədəki hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib





Dövlət Sərhəd Xidmətinin (DSX) Göytəpə şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra tədbir iştirakçılarına Xidmətin rəisi general-polkovnik Elçin Quliyevin təbrik telefonoqramı çatdırılıb.

Mərasimdə çıxış edənlər tədbirin ölkəmizdə Vətən müharibəsində möhtəşəm Qələbənin coşqusunun yaşandığı və şəhidlərin xatirəsinin ehtiramla anıldığı dövrə təsadüf etməsi ilə əlamətdar olduğunu, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən həyata keçirilən əks-hücum əməliyyatları nəticəsində ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğunu, Vətən müharibəsinin Azərbaycan Respublikasının Ermənistan üzərində parlaq Qələbəsi ilə başa çatdığını vurğulayıblar.

Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın Dövlət Sərhəd Xidmətinin qarşısına qoyduğu döyüş tapşırıqlarının uğurla icra olunması, Ermənistanla dövlət sərhədinədək böyük bir ərazinin azad edilməsi, o cümlədən 24 saat ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələrin endirilməsi, Ermənistan ilə dövlət sərhədində strateji yüksəkliklərin ələ keçirilməsi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad olunmasında Azərbaycan sərhədçilərinin göstərdikləri qəhrəmanlıqlar qürur hissi ilə qeyd olunub. Həmçinin işğaldan azad olunmuş dövlət sərhədlərimizin müdafiəsi və mühafizəsi üzrə zəruri infrastrukturun yaradılması istiqamətində işlərin uğurla davam etdirildiyi bildirilib.

Tədbirdə Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini üzərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına əminlik ifadə olunaraq onlara müvəffəqiyyətlər arzulanıb. Karantin və sosial məsafə qaydalarına ciddi əməl edilməklə təşkil olunan mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

# "Növbəti artım ümumilikdə 1 milyon 140 min pensiyaçını əhatə edir"



Dövlət başçısının Fərmanları ilə sosial ödənişlərdə artım bu ilin əvvəlindən davam etdirildi. Prezidentin təqaüdlərinin məbləği şəhid ailələri üçün 66,7%, Azərbaycanın Milli Qəhrəmanı üçün 20%, İkinci Dünya müharibəsi iştirakçıları üçün 100%, müharibə və 20 Yanvar əlilləri, müharibə əlillərinə bərabər tutulanlar üçün 50%-dən çox artırıldı, Vətən Müharibəsi Qəhrəmanları üçün Prezidentin aylıq təqaüdü (2000 manat) təsis olundu. Məlumata görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) İdarə Heyətinin sədri Himalay Məmişov mətbuat konfransında bildirib.

O qeyd edib ki, pensiyaların növbəti artımı ümumilikdə 1 milyon 140 min pensiyaçını və ya pensiyaçıların 93%-ni əhatə edir: "Digər pensiyaçılar isə xüsusi şərtlər əsasında pensiya təyin olunmuş şəxslərdir. Artım 2021-ci ilin 1 yanvar tarixindən tətbiq olunacaq və yanvar ayının artımı fevral ayının pensiyası ilə birgə veriləcək. Pensiyaların indeksasiya edilərək artırılması üçün il ərzində əlavə olaraq 441 milyon manat yönəldiləcək. Dövlət başçısının yeni Sərəncamı ilə fərdi hesabların sığorta hissəsindəki pensiya kapitalı da istehlak qiymətləri indeksinin 2020-ci il üzrə illik səviyyəsinə uyğun səviyyədə indeksləşdirilərək yanvarın 1-dən 2,8% artırılır. Bu da əmək müqaviləsi ilə çalışaraq sosial sığorta sistemində iştirak edən şəxslərin mənafeyinə xidmət edir və onların fərdi hesablarındakı pensiya kapitalının təkcə hər ay əməkhaqlarından sosial sığorta ayırmaları nəticəsində deyil, həmçinin hər il dövlət tərəfindən indeksləşdirilərək artırıldığını da göstərir".

# Hər bir azərbaycanlının qəlbində yaşayan xalqın Mübariz oğlu

*Şəhidlik ən yüksək zirvədir deyirik. Bu zirvəyə yüksəlmək hər kəsə nəsib olmur. Torpaq yolunda can fəda etmək, bu torpağın vətəndaşı olaraq onun yaddaşına hopmaq, qanı ilə vətən torpağına can vermək böyük hünər, qəhrəmanlıq, şücaətdir. Əlbəttə ki, torpaq belə övladlarını qoynuna alarkən qürurlanır. Qürurlanır ki, belə övladlar yetişdirib, onun hər qarışını qan ilə suvarılır. Minlərlə vətən oğlu düşmənə yerini göstərmək üçün, qisası qiyamətə qoymamaq amalı ilə silahlanıb düşmənə qorxaq və gücsüz olduğunu sübut edərək şəhid oldular. 44 günlük Vətən müharibəsində xalqımıza Zəfər tarixin yaşadan oğullarımız Qələbə tariximizi bizimlə qeyd etməsələr də, qalib xalqın övladı kimi məzarlarında rahat nəfəs alırlar. Bu gün Azərbaycanın müstəqilliyi, ərazi bütölüyü yolunda şəhid olmuş vətən övladlarının hər birinin qəhrəmanlıq tarixi dildən-dilə düşərək sanki əfsanəyə çevrilib.*






Elə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov kimi. Milyonların ürəyində heykəlini ucaldan xalqımızın Mübariz oğlu. Hər zaman xalqın yaddaşında, qəlbində olan bir qəhrəman. Gənclərə örnək, torpağımıza ucalıq gətirən Mübariz. Yaşasa idi bu gün 33 yaşı olacaqdı. Vətən ucalığı, vətən sevgisi onun ömür yolunu yarımçıq qoydu. Qəhəmanlıq zirəsinə yüksəltdi. Heç vaxt zirvədən enməyəcək bir yüksəklikdə özünün əbədi məşəlini yandırdı - şəhidlik zirvəsinə yüksəldi. Özü də 22 yaşında. 22 bahar yaşamış bir insan üçün işıqlı ömür yolları olduğu halda seçimində qərarlı oldu. Hər dəfə işğal tariximizlə bağlı bir söz eşidəndə düşmənə qarşı nifrəti daha da artır. Deyirlər vətənpərvərlik ana laylalarından başlayır. Körpə böyüdükcə onun torpağa, elə-obaya bağlılığı yoğrulduğu ana laylalarından kök atmağa başlayır. Sonralar vətənə, doğma torpağa məhəbbət nağıllarımızdan, dastanlarımızdan, atalar sözlərindən əxz olunmağa başlayır. Vətənlə bağlı düşüncələri, vətənpərvərlik tərbiyəsi, vətəni sevmək kimi ali dəyərlər Mübarizi qəhrəman kimi yetişdirir - ərən, igid, mübariz. 22 yaşlı bir gəncin düşmənlə üz-üzə gələrək, qisası qiyamətə qoymaması onun ruhi, əqli, mənəvi dünyasında hökmranlıq edən Vətən sevgisindən köklənmişdi.

## ŞƏHİD OLANADƏK BU ŞƏRƏFSİZLƏRİN ÜZƏRİNƏ GEDƏCƏYƏM...

Hər dəfə onun qısa, lakin neçə-neçə onilliklərə bərabər bir ömür yaşadığını görürük. Əsrlərə dastan olacaq bir ömür yaşadı. Neçə-neçə əsrlər bu əfsanəyə çevrilmiş ömür yolundan yazılacaq, qəhrəmanlığı dildən-dilə dolaşacaq. 1988-ci ilin 7 fevral tarixində Biləsuvar rayonunun Əliabad kəndində anadan olan Mübariz bir kəndin, bir rayonun yox, bütün türk dünyasının övladına çevrildi. Qısa ömürdən sətirlər oxuyuruq. 1994-cü ildə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbinin 1-ci sinfinə daxil olaraq 2005-ci ildə orada orta təhsilini başa vurub. Həmin il həqiqi hərbi xidmətə çağrılıb. Əsgəri xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Həqiqi hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub. Bir müddət mülki işlərdə işlədikdən sonra 2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində hərbi xidmətdə çalışmağa başlayıb. Sonra öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət edib. Bu yola qədər uşaqlıq və gənclik illərinin ilk illərində baş verən hadisələr onun yaddaşına elə həkk olur ki, o düşməndən intiqam almaq hissi ilə yaşayır. Mübariz Qarabağ müharibəsi ilə həmyaşıd idi. 19 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçir. Belə bir qətiyyətli addımı atarkən ailəsinə son məktubunu yazmağı şübhəsiz ki, özünə borc bilir: "Canım atam və anam. Məndən ötrü darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam - ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin". Bu hallallıqdan sonra qəhrəmanlığa doğru addımlarını atır. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz birinci həmlədə məhv edir. Sonra isə düşmənin öz silahlarından özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşür. Düşməni ağır itkilərə məruz qoyur, onların zəif cinahlarını üzə çıxarır. Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur. Bu şəhidlik bütün Azərbaycana, dünya ölkələrinə işıq sürəti ilə yayılır. Atası Ağakərim İbrahimov belə deyir: "Hadisənin səhəri günü tezdən saat 5-6 arasında mənə zəng gəldi. Soruşdular ki, oğlunuz evə gəlməyib ki? Hətta bildirdilər ki, çoxlu silah götürüb və ərazidən uzaqlaşıb. Dedim, mən oğlumu tanıyıram, sərhədə tərəf gedin. Sonra da məktubunu tapmışdılar..."

## ÜÇRƏNGLİ BAYRAĞIMIZI UCA TUTAN CƏSUR OĞULLAR MİLLƏTİMİZİN QÜRUR MƏNBƏYİDİR

Hər kəs yaxşı xatırlayır. Rusiya prezidenti Vladimir Putinin Azərbaycanda yeni Rembo peyda olub, deyə bildirmişdi: "Mən çox qəribə və maraqlı məlumat almışam. Bir gecə silahlanıb təkbaşına erməni ordusuna qarşı hücuma keçərək 135 nəfər erməni əsgər və zabitini qanına qəltan edib. Əgər rəsmi məlumat olmasaydı, mən bu xəbərə inanmazdım. Çünki biz bu cür igidlikləri kinolarda görmüşük. Rembo kinoda 200 nəfərdən çox adam öldürəndə, deyirsən ki, bu fantastikadır. Həqiqətən də bu fantastikaya oxşayır. Axı, necə ola bilər ki, bir nəfər silahlı 200 nəfər silahlıya atəş açır, 200 nəfərin atdığı atəş isə bu bir nəfərə dəymir, həmin bir nəfər isə sərrast atəşlə hamısını yerə sərir. Bu, heç cür ağılabatan deyil. Deməli, Rembo təkcə kinoda deyil, həyatda da var.''

Bu əfsanələşən bir filmin qəhrəmanı bizim Mübarizdir. Azərbaycanlı Mübariz. Dünyaya, ən əsası da erməniyə Azərbaycan gücünü, Azərbaycan oğlunun belə bir cəsarətini, qəhrəmanlığını göstərdi. Fəxrimiz, Fəxarətimiz MÜBARİZ. Belə bir şəhidlik, qəhrəmanlıq hər həsə nəsib olmur. Bunu Azərbaycan torpağının yetirdiyi Mübariz İbrahimov göstərdi! Vətən üçün hər kəsin cavabdeh olmasını yaxşı anlayırdı Mübariz İbrahimov. Hər vaxt üçrəngli bayrağını uca tutan cəsur oğullar millətimizin qürur mənbəyidir.

## MÜBARİZİ YAŞADIĞI ZAMAN, DOĞULDUĞU TORPAQ QƏHRƏMAN ETDİ

Azərbaycanda saxta qəhrəmanlar olmur. Bugünki dünyada bütün arxiv sənədlərinin aşkar şəkildə olması, həqiqətlərin dünyaya çatdırılması, ağı qaradan seçməyə imkan yaradıb. Təbii ki, heç kəs anadan qəhrəman doğulmur. Onu yaşadığı zaman, doğulduğu torpaq, vətənpərvərlik ruhu yetişdirir.

Ermənilərə dərs verən Mübariz İbrahimovun cəsədini Ermənistan 141 gün saxlamışdır. Ermənilər İbrahimovun cəsədinin şəkillərini internet saytlarında yayımlamışdır. Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 27 oktyabr 2010-cu il tarixli birgə bəyanatına uyğun olaraq, eyni zamanda, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq təşkilatlarla apardığı müntəzəm danışıqların nəticəsində, İbrahimovun meyidi 6 noyabr 2010-cu il tarixdə Ağdam-Bərdə yolunun üzərində, işğal altındakı Baş Qərvənd kəndi yaxınlığında Ermənistan tərəfdən alınmışdır. Proses Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Azərbaycan Respublikası Müdafiə Nazirliyi əməkdaşlarının iştirakı, Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilmişdir.

2010-cu il noyabrın 7-də Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində keçirilən vida mərasiminə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edərək, nitq söyləmişdir. Bizim qəhrəman İkinci Fəxri xiyabanda dəfn olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Milli Ordusunun giziri Mübariz Ağakərim oğlu İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adının (ölümündən sonra) verilməsi barədə Sərəncam imzalayıb. Prezidentin başqa bir Sərəncamı ilə Milli Qəhrəman Mübariz Ağakərim oğlu İbrahimovun xatirəsini əbədiləşdirmək məqsədilə Biləsuvar rayonunun orta məktəblərindən birinə Mübariz İbrahimovun adı verilib. Biləsuvar rayonunda küçələrdən biri Mübariz İbrahimovun adını daşıyır. 2008-ci ildə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi "İstiqlal" snayper tüfəngləri ailəsindən 12.7 mm çaplı ikinci tüfəng onun şərəfinə "Mübariz" adlandırılıb. Qardaş Türkiyə də tədbir, film və seriallarında Azərbaycan qəhrəmanı Mübariz İbrahimovun adını sonsuz hörmət və məhəbbətlə yada salıb və salır. Onun qəhrəmanlığı TRT 1 kanalında nümayiş olunan "Qızıl Alma" serialında geniş yer alıb. Mübariz İbrahimovun adını daşıyan gəmi 2010-cu ilin oktyabr ayının 15-də Türkiyədə "Beşiktaş" gəmiqayırma zavodundan suya endirilib. Türkiyədə suya endirilmiş bu gəmi hazırda Milli Qəhrəman Mübariz İbrahimovun adını dünya sularında tanıdır.

2014-cü ildə Kanadanın Ottava şəhərində yerləşən Minto Parkında Azərbaycan icmasının təşəbbüsü ilə Mübariz İbrahimova xatirə lövhəsi vurulub. 2016-cı ildə Sumqayıtda küçələrdən birinə Milli Qəhrəman Mübariz İbrahimovun adı verilib. Mübariz İbrahimova həsr edilən "Müqəddəs zirvə" adlı film çəkilib. Nə qədər onun haqqında yazılsa da, yenə də Mübarizlə bağlı olan fikirlərə, sözə nöqtə qoyulmur. Hər tərəfdən Mübariz işığı görünür, Azərbaycanı şölələndirir.

Mübariz adını doğrultdu. Vətəninin mübarizliyini dünya bir daha sübut etdi. Bu ad hər azərbaycanlının qəlbindədir! Şəhid Mübarizimiz yaşayır!!! Bu gün o, məzarında rahat nəfəs alır. Onun məsləkdaşları Mübariz ruhunda böyüdülər. Çoxları Mübariz yolu ilə getmək arzusu ilə yaşayırdı. Axı vətən torpağının 20 faizi işğal altında idi. 27 sentyabr taxixində başlanan Vətən müharibəsində vətənin müdafiəsinə qalxdılar. Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında bir yumruq olaraq birləşdilər. Geriyə dönmədən bu günü illərdir gözlədiklərindən düşməni 44 günlük müharibədə məğlub etdilər. Zəfəri yaşamaq xalqımıza nəsib oldu. Bu yolda şəhid də oldu, qazi də. Amma 30 illik həsrətə son qoyuldu.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Nəzakət ƏLƏDDİNQIZI**

# İşğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışı məsələləri üzrə İşçi Qrupunun iclası keçirilib

Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışı məsələləri üzrə İşçi Qrupunun iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin əsas məqsədlərindən biri olan həmin ərazilərə əhalinin qayıdışı ilə bağlı konkret vəzifələr müəyyən etmiş və bu istiqamətdə zəruri tapşırıqlar vermişdir.

AZƏRTAC xəbər verir ki, İşçi Qrupunun rəhbəri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev dövlət başçısının tapşırıqlarına uyğun olaraq həyata keçirilən işlər haqqında ətraflı məlumat verib.

Daha sonra Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi -Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, kənd təsərrüfatı naziri İnam Kərimov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və digər aidiyyəti dövlət qurumlarının rəhbərlərinin iştirakı ilə işğaldan azad edilmiş ərazilərdə planlaşdırılan fəaliyyətlərə dair geniş müzakirələr aparılıb. Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.



# "Amerika oliqarxları ölkənin onlara məxsus olduğuna qərar verdi"

***Ştatlarda sosial bərabərsizlik problemi irqçilik problemi ilə necə əvəzlənir, Baydenin rəhbərliyindəki amerikalı oliqarxlarını nə gözləyir və ABŞ-ın 46-cı prezidentinin yerinə əslində hakimiyyətdə kimlər olacaqlar? ABŞ-ın Tennessi Universitetinin alimi, siyasət professoru Andrey Korobkov bu məsələləri Pravda qəzetinə şərh edib. Müsahibəni təqdim edirik.***

### OLİQARXLARIN MƏHDUDİYYƏTSİZ GÜCÜ

**- Amerikada çox sayda koronavirus xəstəsi tibbi sığorta sistemi ilə bağlıdır. Əhalinin ən kasıb təbəqələri olan qara dərili əhali lazımi kömək ala bilmədikləri üçün ağdərili əhalidən daha çox əziyyət çəkirlər. Digər tərəfdən, Amerika siyasi seriallarında vəkillər və hakimlərin çoxu Afroamerikalılardır. Ağlar daha az peşəkardır və fərqli problemləri var. Üç hakimdən ikisinin Afroamerikalı olması doğrudur? Yoxsa bu, uydurmadır?**

- Xeyr. Afroamerikalıların ABŞ əhalisindəki payı 13%-dir, buna görə də televiziya proqramları sosialist realizmi prinsipi əsasında qurulub. Nəyin olacağını yox, necə olacağını göstərir. Sanki əhaliyə dərs verirlər. Bu, 1930-cu illərdəki Sovet mövzusuna bənzəyir. Təbii ki, azlıqların nisbəti artır. Ancaq hakimlər və vəkillərin həqiqi sayı baxımından hələ də ictimai sahədə az təmsil olunurlar.

Bundan əlavə, tibb həmişə sosial-iqtisadi bir sualdır: sistemdən asılı olmayaraq kimin keyfiyyətli dərman əldə etmək imkanı var. Bir yerdə nomenklatura üçün xüsusi xəstəxanalar var, bir yerdə pulla yaxşı dərman var və s. Ancaq ABŞ bu boşluğu aradan qaldırmaq məqsədi daşıyan azlıqların güzəşt sisteminə malikdir. Bu güzəştlər azlıq tərəfindən istifadə olunur və ağ əksəriyyət tərəfindən getdikcə şübhə ilə qarşılanır.

Problem sosial-iqtisadi məsələnin tez-tez irqi və ya etnik olaraq təqdim edilməsidir. İnsanlar müəyyən bir qrupa aid olduqları üçün deyil, kasıb olduqları üçün keyfiyyətli dərmanlardan istifadə edə bilmirlər. Bu tamamilə fərqli bir reallıqdır.

ABŞ-da ortaya qoyulan yanaşma əsl problemi gizlədir.

Tramp-a qarşı 4 oliqarx qrupun olduğu məlumdur:

* maliyyə kapitalı,
* hi-tech (internet baronları),
* media bloku,
* tibb bloku.

Son illərin qloballaşması nəticəsində sərbəst sərmayə axını, maliyyə imperatorluğunun formalaşması, ifrat varlı oliqarxlar təbəqəsi meydana gəldi, yəni Tramp kimi 3 milyarda deyil, 100 milyarda sahib olan insanlar meydana gəldi. Onlardan ikisinin artıq 200 milyarddan artıq sərvəti var - bu, Elon Mask və Amazonun sahibi Bezosdur. Üstəlik, bu qrupda Mask istehsal ilə məşğul olan yeganə şəxsdir. Kosmik sektorda çalışır, avtomobillər, elektrikli nəqliyyat vasitələri istehsal edir. Qalanlarının hamısı maliyyə və internet oliqarxlarıdır. Onlar və hətta ənənəvi olaraq zəngin olan milyarderlərlə ümumi əhali arasında arasındakı uçurum, internet resursları üzərində nəzarətlə birləşdirilən gücləri hədsiz dərəcədə artmışdır. Bunu Tramp məsələsində göstərdilər.



Trampın kənarlaşdırılmasından həqiqətən faydalanan oliqarxlardır. Ölkənin artıq onlara məxsus olduğuna qərar verdilər.

200 milyard dollar nə deməkdir? Bu, Rusiya ÜDM-nin 10%-dən çoxdur. Bu, dünyanın 90-dan çox ölkəsinin ÜDM-dən çoxdur. Trampı yıxaraq, hər şeyi edə biləcəklərinə qərar verdilər və 1990-cı illərin sonundakı rus oliqarxları kimi davranmağa başladılar.

- Bunun necə bitdiyini xatırlayırıq.

- Boyunlarını qırdılar. Düşünürəm ki, bu vəziyyət 1957-ci ilin yayında Sovet İttifaqında təkrarlandı. Jukov, Xruşşevi xilas edərək, Siyasi Büro iclasında bəyan etdi ki, partiya əleyhinə qrup hakimiyyəti ələ ala bilməyəcək. O, silahlı qüvvələrin buna imkan verməyəcəyini elan etdi. Xruşşov bunu dərhal nəzərə alır və köməyinə görə "minnətdarlıq" əlaməti olaraq Jukovun yerini dəyişdirir.

Eyni şey burada oldu. Oliqarxlar güclərini göstərdilər ki, hər şeyi edə bilərlər. Və bu siyasi quruluşu çox qorxutdu. Düşünürəm ki, Trampın vəzifəsindən uzaqlaşdırılmasına görə minnətdarlıq olaraq güclərini məhdudlaşdırmağa, yəni bir tərəfdən senzuranın tətbiq olunmasının qarşısını almağa, digər tərəfdən maliyyə imperiyalarını sındırmağa cəhdlər başlayacaq. Buna görə də kifayət qədər maraqlı bir vaxt keçirəcəyik.

### ZƏİF PREZİDENT

**- Bayden haqqında çox yaşlı olduğunu, ad və familiyaları qarışdırdığını söyləyirlər. O, nə dərəcədə ölkənin həqiqi prezidenti ola bilir və səhhəti bu müddətə oturmağa imkan verəcəkmi? Hər şey vitse-prezidentin həqiqi lider ola biləcəyinə gedir. Həqiqətən, Bayden nə qədər zəifdir?**

- Bunu ən yaxın ətrafından başqa heç kim bilmir. Diqqətlə qorunur. Heç vaxt təcavüzkar danışmır, yalnız teleprompter ekranından onun üçün yazılmışları oxuyur. Düşünürəm ki, onun vəziyyəti kifayət qədər ağırdır.

Amerikada prezidentin funksional olmadığı hallar olub. Reyqan 2-ci müddətinin sonunda Alzeymer əlamətləri göstərirdi. Yüz il əvvəl XX əsrin əvvəllərində Vudro Vilson ağır bir İspan qripi keçirdi, sonra da insult keçirdi. Bu, bir il gizlədildi. İdarə böyük ölçüdə arvadının əlinə keçdi.

Amerika Birləşmiş Ştatları vitse-prezidentin praktik olaraq heç bir icra funksiyası yoxdur, yəni Prezident istəsə ona təlimat verə bilər, istəməsə yox. Harris də yarıya bölünəcək- Senatda da işləyəcək. Səsvermədə iştirak etmək üçün tez-tez orada iştirak etməli olacaq. Bayden hakimiyyəti onunla bölüşmək istəyəcəkmi?

**Böyük və pulgir bir ailəsi var. Bu, yalnız haqqında çox eşitdiyimiz oğul deyil, həm də qardaş, qardaş oğludur. Hakimiyyət rıçaqlarına nə dərəcədə qəbul ediləcəklər, 1990-cı illərin sonlarında Rusiyanın Amerikadakı vəziyyəti təkrarlanacaqmı?**

Xüsusən, iqtidar partiyası olan Demokratlar üçün iş qabiliyyətsizliyinə görə prezidentin vəzifədən azad edilməsi alçaldıcıdır. Bu səbəbdən, çox güman ki, stereotip ifadələr söyləyən prezidentlə kədərli bir dövr olacaq. Qərarları özü verəcək, yoxsa köməkçilərinə getdikcə daha çox səlahiyyət verəcək? Məncə Bayden Harrisə qorxu ilə baxır. Onu yaxşı tanıyır. İlkin seçkilər zamanı necə davrandığını xatırlayır: ona qarşı çox pis münasibəti vardı. İddialı bir qadındır. Və hər şey bir çox amillərdən asılıdır:

* Baydenin vəziyyəti,
* gücü paylaşmaq istəyi,
* ailə üzvlərinin davranışı,
* Harrisin davranışı.

Yaxın gələcək bunu göstərəcəkdir.

*(Davamı olacaq)*

*Müsahibə alan: İnna Novikova*

*Tərcümə edən: Elçin Bayramlı*

# Koçaryan Moskvada kimlə görüşəcək?



***Ermənistanın müxalifət liderləri hesab edirlər ki, yalnız Koçaryan Rusiya paytaxtından qayıtdıqdan sonra konkret planlar qurulmalıdır. SİA xəbər verir ki, bu barədə "Joxovurd" qəzeti yazır. Nəşrin yazdığına görə, Robert Koçaryanın Moskvadan qayıtmasından sonra müxalifət liderləri yeni bir görüş keçirməyi planlaşdırırlar. "8 fevrala qədər ikinci prezident Robert Koçaryan Moskvada Rusiya elitası ilə görüşlər keçirəcək, sonra Ermənistana qayıdacaq. Bir gün əvvəl müxalifət liderlərinin bir iclasında konkret planların yalnız Koçaryanın qayıdışından sonra edilməsi lazım olduğu müzakirə edilib. Bunun üçün yeni bir görüş lazım olacaq", deyə qəzet yazır.***

"Joxovurd" yazır ki, Koçaryan Moskva səfərindən bir qədər əvvəl keçmiş prezident Serj Sarkisyan, Rodina partiyasının lideri Artur Vanesyan, habelə baş nazirliyə müxalifət namizədi Vazgen Manukyan, Daşnaqsütyun nümayəndəsi İşxan Saqatelyan və Çiçəklənən Ermənistanın başçısı Qaqik Sarukyan görüşüblər. Qəzetin yazdığına görə, müxalifətin yalnız 20 fevraldan etibarən baş nazir Nikol Paşinyanın istefasını tələb edən aktiv hərəkətlər edəcəyi planlaşdırılıb.

*İnam Hacıyev*

**"Onun statusunu 10 nəfər cəbhə trolu istifadəsində olan feyk səhifələrlə like edir, şərh yazır, paylaşır və topfan olurlar"**

# FOTOFAKT: YAP-çı gənc AXCP sədrinin yalanını belə üzə çıxardı!

**"Adam düşünmür ki, artıq onun bu "işləri" də heç bir effekt vermir"**










AXCP sədrliyi ilə yanaşı, həm də sosial şəbəkələrdə blogerlik fəaliyyəti göstərən və klaviaturanı özünün dırnaqarası siyasi baxışlarının "mühüm strateji faktoru" olaraq qəbul edən Əli Kərimli, deyəsən, bu dəfə yaman çıxılmaz vəziyyətə düşüb. SİA xəbər verir ki, "cəbhəçi" sədrin sosial şəbəkədəki trol əməliyyatı YAP-ın gənc fəalı Anar Şahmuradov tərəfindən araşdırılaraq ifşaya məruz qalıb.

Onun yazdığına görə, İnstagram sosial şəbəkəsində "panel vurmaq" deyə bir anlayış var və bunu instagram istifadəçiləri yaxşı bilirlər: "Qısa qeyd edim ki, "panel vurmaq" dedikdə, xüsusi proqram vasitəsilə izləyici, like (bəyənmə) və şərh sayını süni formada artırmaq nəzərdə tutulur. Lakin Facebook-da bu kimi bir əməliyyat etmək mümkün deyil. Amma görünür, AXCP sədri Əli Kərimli "facebook-da "panel vurmağın" yolunu tapıb".

**"Əli Kərimli trollarını məcbur edir ki, hərəyə 10-15 saxta hesabla "çoxluq" görüntüsü yaratsınlar"**

"Demək, gün ərzində 2-3 cızmaqara yazıb paylaşır. Dərhal "panel vurma" əməliyyatı başlayır. Onun statusunu 10 nəfər cəbhə trolu istifadəsində olan feyk səhifələrlə like edir, şərh yazır, paylaşır və topfan (fanatların çoxluğu) olurlar. Bu da olur siyasi fəaliyyət", deyə qeyd edən YAP-ın gənc fəalı davam edir: "Axı, özünü siyasətçi hesab edənlər Facebook-da tozanaq qaldırmağı siyasi fəaliyyətlərinin keyfiyyət göstəricisi hesab edirlər. Əli Kərimli də belələrindəndir. Trollarını məcbur edir ki, hərəyə 10-15 saxta hesabla "çoxluq" görüntüsü yaratsınlar".

Anar Şahmuradov yazır ki, onun bu ifşasından sonra cəbhəçi gənclər onu yalançılıqda ittiham edəcəklər.

Lakin o bəri başdan həmin ittihamları rədd edən faktları da ictimailəşdirib: "İndi cəbhəçilər gəlib məni ittiham edəcəklər ki, yalandır. Elə isə Əli Kərimlinin statuslarını bəyənib paylaşan bu "Sakit Okean"dan Uzaq-yaxın sahillərdə"yə kimi "fəaliyyətdə" olan Nationa Geo, Markus Wolf, Aglay üzlük daşların satışı, Shanti Om, As As, Topdancı Geyim, Kefli İsgəndər, AG Tel və onlarla şəklisiz "ağ profillər" kimlərindir və ya real olaraq kimlərdir?

Olsun ki, ağ yalanlarına rəng çalarları qatmaq üçün "instagram"dan fərqli olaraq Facebok-da "manual panel vurdurarkən" Əli Kərimlinin öz aləmində düşünür ki, ictimai dəstəyi var. Ancaq adam düşünmür ki, artıq onun bu "işləri" də heç bir effekt vermir. İnanmırsa, özü də baxa bilər".

***Rövşən RƏSULOV***

# Erkən yaşlanmamaq üçün hansı qidalardan uzaq durmalıyıq?

**İspaniyada bir araşdırma həddindən artıq işlənmiş sənaye qidalarının bioloji yaşlanmaya səbəb olduğunu aşkarlayıb. SİA-nın araşdırmalarına görə, tədqiqat 55 yaşdan yuxarı 886 ispanın iştirakı ilə aparılıb. Alınan nəticələrdə, hazır qidalar, peçenye, qazlı içkilər və hamburger kimi yüksək dərəcədə işlənmiş sənaye qidalarını tez-tez istifadə edənlərdə bioloji yaşlanmanın sürətləndiyi müşahidə edilib.**



Bu şəxslərdə 'telomer' adlanan genetik komponentlərin uzunluğu ölçülüb. Gündə üç dəfə ultra işlənmiş qidalarla qidalanan şəxslər və daha az istifadə edənlər üzərində sınaqlar aparılıb. Navarre Universitetindən Amelia Martinin nəzarəti altında aparılan təcrübə çərçivəsində, genetik analiz üçün insanlardan tüpürcək nümunələri götürülüb və hansı qidaları qəbul etdikləri araşdırılıb. Yüksək dərəcədə işlənmiş qidalardan istifadə edən insanlarda telomerlərin iki dəfə az olduğu məlum oldu.

Qısa telomerlər hüceyrə səviyyəsində bioloji yaşlanmanın göstəricisidir. Mütəxəssislər, səbəb və nəticə əlaqəsini aydın şəkildə qurmaq üçün mövzu ilə əlaqədar digər araşdırmaların aparılmalı olduğunu bildirirlər.

Telomerlər bədənin hər hüceyrəsinin işləməsi üçün DNT-ni qoruyan quruluşlardır. Yaşlandıqca telomerlərimiz qısalır və hüceyrə bölünəndə kiçik bir telomer parçasını itirir. Bu fenomen təkrarlanır və hüceyrələrin qocalmasına səbəb olur.

Lucia Alonso-Pedrero və həmkarları tərəfindən Navarre Universitetinin (Pamplona, ??İspaniya) Amelia Martinin nəzarəti altında aparılan bu araşdırma American Journal of Clinical Nutrition jurnalında dərc edilib.

Məsələ ilə əlaqədar SİA-ya açıqlama verən Kompleks Tədqiqatlar Laboratoriyasının müdiri, Qida Təhlükəsizliyi üzrə ekspert Fuad Ağayev bildirib ki, bu kimi araşdırmalar mütəmadi olaraq aparılır: "Həddindən artıq işlənmiş sənaye qidaları orqanizmdə dəyişiklərə yol açır. Həmin fəsadları biz 3-5 aydan sonra görmürük. Bu fəsadlar bir neçə ildən sonra üzə çıxır. Çünki zərərli maddələr bədəndə toplanır və fəsadları daha sonra üzə çıxmağa başlayır. Misalçün texniki suları həddən artıq qəbul etdikdə bu bir zaman sonra böyrəklərdə fəsadlara gətirib çıxarır".

F.Ağayev vurğulayıb ki, bunlarla mübarizə aparmaq məsələsinə gəldikdə isə fastfud, energetik içkilər və s. bu qəbildən olan qidaların istehsal edildiyi müəssisə sahibləri bildirirlər ki, biz istehlakçı hüquqlarını pozmuruq və biz daimi elan edirik ki, bu məhsullar ev şəraitində hazırlanan qidalardan fərqlidirlər: "Bu halda bu kimi qidaların istifadəsi istehlakçının öz seçiminə qalır. Bu mənada hüquqi cəhətdən mübarizə aparmaq çətindir. Eyni mənzərə misalçün quşçuluq və heyvandarlıq məhsullarında da özünü göstərir. Həmin heyvanlar soya ilə qidalanır daha sonra kəsilir və həmin ət və ət məhsulları ilə biz qidalanırıq. Bu da müəyyən illərdən sonra bir sıra fəsadlara gətirib çıxarır".

***Aysel Məmmədova***

# Vardan Bostanjyan: "Ermənistanın xarici borcu 9 milyard dolları keçəcək"




Düşmən ölkədəki uğursuzluqlar bir-birini təqib etməkdədir. Elə əvvəldən bərbad iqtisadiyyata malik olan bu ölkədə Paşinyanın yalanla dolu xalqa sırıdığı "tərəqqi" artıq öz "bəhrə"sini verməkdədir. Belə ki, reallıq göz önündədir: "Ermənistanda iqtisadi azalma 10 faizdən də çox olacaq, xarici borcun ümumi həcmi isə 9 milyard dolları keçəcək". SİA xəbər verir ki, bunu erməni iqtisadçı Vardan Bostanjyan ötən gün "NEWS.am" saytına verdiyi müsahibəsində bildirib. Erməni iqtisadiyyatının geriləmədə olduğunu bildirən iqtisadçı, yaranmış vəziyyətdə müsbət tendensiyalar barədə danışmağın gülünc olduğunu etiraf edib.

Bir müddət əvvəl Ermənistanın maliyyə nazirinin iqtisadi artımla bağlı 3.2 faizlik proqnozlarına münasibət bildirən Bostanjyan bu cür proqnozların daha çox cəmiyyətin çaşdırılmasına hesablandığını bildirib. Onun fikrincə, bu gün ölkədə hər hansı bir iqtisadi inkişafla bağlı təsəvvür belə gülünc görünür. Məhz bu mənada, ölkədə küclü bir tənəzzülün olacağını istisna etməyən erməni iqtisadçı bunun əsas səbəbini iqtisadi fəaliyyətin məhdudlaşdırılmasına təkan verən pandemiya və müharibənin mənfi nəticələrindən qaynaqlanacağını da istisna etməyib.

Ermənistanda dövriyyənin məhdud olduğunu, dövlət idarəetmə sisteminin son dərəcə aşağı səmərəliliyi ilə əlaqələndirən Bostanjyan, yaranmış mürəkkəb şəraitdə ölkədə iqtisadi tənəzzülün ikirəqəmli, hətta 10 faizdən də çox göstəricilərə gətirib çıxaracağını bildirib.

Dövlət borcuna gəldikdə, ekspertin fikrincə, onun həcmi 9 milyard dolları keçəcək. Erməni iqtisadçı hökumətin 750 milyon dollar məbləğində avrobond buraxdığını və bunun da bir borc olduğunu xatırladıb: "Biz artıq borcla barışmışıq, amma problem ondadır ki, pul cari xərcləri ödəməyə gedir, borc institutu isə kapital proqramlarının icrası yolu ilə yeni fəaliyyətlər yaratmaq üçün nəzərdə tutulub", - deyə Vardan Bostanjyan bildirib.

***Ağasəf Babayev***

# Tonoyanın "qazandığı" indi Paşinyanın başında sınır



Ermənilər fevralın 5-də döyüşlərdə həlak olan daha 52 hərbçinin siyahısını açıqlayıb. Belə görünür ki, "məğlubedilməz" erməni ordusu kimi təqdim edilən "ordu", əslində, yalan imiş. Maraqlıdır ki, bu gün erməni parlamentində "Mənim addımım" blokundan olan deputat Anuş Beqloyanın "30 ildə mövcud olmayan erməni ordusu" ilə bağlı səsləndirdiyi fikirlərə, yeni müdafiə naziri Vaqarşak Arutyunyan münasibət bildirməkdən yayınıb.

"Erməni hakimiyyətində kimin olmasından asılı olmayaraq, biz məğlubiyyətə məhkum idik". Bilirsiniz, bu fikirləri kim deyib? Anna Akopyanın deputat qardaşı Qraçya Akopyan. O da maraqlıdır ki, onun bu sözləri ermənilərin lap cızdağını çıxarıb. Necə olur ki, kukla teatrının adi bir aktyoru millət vəkilinə çevrildikdən 2,5 il sonra İrəvanın mərkəzində lüks malikanə, bahalı xarici avtomobillərə sahib olur.

...Aydındır ki, heç bir ağlı başında olan siyasətçi müqavilə müharibəsini başlatmaq üçün qəsdən həll danışıqlarını boğmazdı. SİA erməni mediasına istinadən, bunu bəzi sadəlövh ermənilərin düşündüyünü bildirir. Amma məsələ bundadır ki, müdafiə naziri Tonoyan elə ilk gündən "qazanacağıq"-deməklə səriştəsiz Nikolu da buna inandırmışdı.

Bununla belə, ermənilər Nikol üçün qurulacaq məhkəmədə istintaqın Paşinyanın əraziləri düşmənə vermək üçün qəsdən təcavüzə təhrik etdiyini sübut edəcəklərinə ümidlidirlər. Onların fikrincə, ağıllı siyasətçi minlərlə erməni uşağını ölümə göndərməzdi.

Qeyd edək ki, bu gün Ermənistanda müharibənin bir nömrəli səbəbkarı olduğu iddia edilən baş nazir vaxt keçdikcə hər şeyin unudulacağına elə də şübhə etmir. Amma belə görünür ki, ermənilər də, Paşinyanın müharibəni bir neçə gündə başa vurmaq fürsətini əldən verdiyi üçün onu bağışlamayacaqlarına israrlıdırlar.

Xatırladaq ki, müharibənin 4-cü günü Baş Qərargah rəisi Onik Qasparyan hərbi əməliyyatların dərhal dayandırılmalı və məsələnin siyasi yolla həll olunması ilə bağlı Paşinyanı məlumatlandırıb. Baş nazir isə, ölkədə total səfərbərlik keçirilməsi ilə bağlı əmr verb. Halbuki, Nikol artıq məğlub duruma düşdüyünü anlamışdı. Yeri gəlmişkən, bu gün Ermənistanda intiharların sayı artmaqdadır. Maraqlıdır ki, bu intiharlar ən çox müharibə yolu keçmiş erməni gəncləri arasında müşahidə edilməkdədir.

***Ağasəf Babayev***

# "Şəhid mövzusu ilə manipulyasiya etmək şəhidlərin ruhuna, cəmiyyətə qarşı hörmətsizlikdir"

"44 günlük İkinci Qarabağ müharibəsi dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun gücü, qüdrəti, xalqımızın dəmir yumruq şəkilində birliyi sayəsində Azərbaycanın hərbi və siyasi Qələbəsi ilə başa çatdı. Bu Zəfərimiz dünyaya haqqın, ədalətin, beynəlxalq hüququn kimin tərəfində olduğunu çatdırmaqla yanaşı, bu torpaqların əsl sahibini də təqdim etdi. Bu Qələbə şəhidlərimizin qanı, canı bahasına əldə edildi, yeni tarix yazıldı. Zəfərimiz harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıları, bizə dost, qardaş olan ölkələri sevindirdi, qürurlandırdı, başımızı uca tutmağa stimul verdi. Ən əsası Azərbaycan xalqının qüruru özünə qayıtdı. Bu, məsələnin bir tərəfidir. Bugünümüz üçün aktual olan məsələlərdən biri isə Vətən müharibəsi ilə bağlı mövzulara həssaslıqla yanaşılması, şəhid ailələrinə, yaralı döyüşçülərə, müharibə iştirakçılarına diqqət və qayğıdan bəhs edərkən faktların dəqiqləşdirilməsi, ictimai fikri çaşdıracaq informasiyaların yayılmasına yol verilməməsidir". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Surasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.



V.Rəhimzadə qeyd edib ki, yazılı və elektron KİV-lərin ictimai fikrə təsir imkanlarının genişləndiyi, internet resurslarının inkişaf etdiyi, istifadəçilərin sayının günbəgün artdığı hazırkı dövrdə bəzi peşəkarlıqdan uzaq KİV-lərdə və sosial şəbəkələrdə qərəzli məlumatların yayılması birmənalı qarşılana bilməz. Mətbuatın qarşısında dayanan əsas prinsiplərdən biri yayılan informasiyanın düzgünlüyünü, faktların dəqiqliyini yoxlamaq və bundan sonra cəmiyyətə təqdim etməkdir. Amma çox təəssüflər olsun ki. bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçiləri tərəfindən cəmiyyətdə süni ajiotaj yaratmaq məqsədilə məlumatın dəqiqliyi yoxlanılmadan informasiyaların ictimailəşdirilməsi hallarına rast gəlinir. "Bu günlərdə bir sıra kütləvi informasiya vasitələrində, eləcə də sosial şəbəkə profillərində iki övladının- Valid və Azər Kazımovların Vətən müharibəsində itkin düşdüyü bildirilən Rəna Kazımova adlı qadının videogörüntüləri paylaşılmaqdadır. Həmin görüntülərdə qadın ağlayaraq övladlarından xəbər tuta bilmədiyini diqqətə çatdırır, kömək istəyir. Lakin araşdırmalar nəticəsində Lənkəran rayon sakini olan və hazırda Bakının Suraxanı rayonunun Hövsan qəsəbəsində kirayədə yaşayan Rəna Kazımovanın, ümumiyyətlə, övladının olmadığı məlum olub. Həmçinin o da məlum olub ki, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Suraxanı rayonundakı strukturu tərəfindən Valid və Azər Kazımov adlı şəxslər hərbi xidmətə çağırılmayıblar. Bu adların Müdafiə Nazirliyinin itkin düşmüş şəxslərlə əlaqədar siyahısında da yer almadığı məlum olub. Bu faktların təsdiqi bir daha onu söyləməyə əsas verir ki, ucuz reytinq naminə bu cür yoxlanılmamış mövzulardan sui-istifadə edən, həm də feyk xəbərlərə əsaslanan bəzi üzdəniraq jurnalistlərin bu kimi addımları bir tərəfdən qeyri-peşəkarlığın və səriştəsizliyin göstəricisidirsə, digər tərəfdən onların cəmiyyətdə çaşqınlıq yaratmaq niyyətlərinin təzahürüdür".

Baş redaktor bildirib ki, İkinci Qarabağ müharibəsi Azərbaycanın hərbi və siyasi Qələbəsi ilə başa çatdıqdan sonra dövlətimizin başçısı İlham Əliyevin bu günədək imzaladığı Fərman və sərəncamlara diqqət yetirsək görərik ki. onların böyük əksəriyyəti şəhid ailələrinə, qazilərimizə, müharibə iştirakçılarına diqqət və qayğını əhatə edir: "Dövlətimizin başçısı İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli sərəncamları Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədi daşıyır. Həmin sərəncamlar əsasında sentyabrın 27-si Anım Günü, noyabrın 8-i isə Zəfər Günü kimi təsis edildi".

V.Rəhimzadə möhtərəm Prezidentimizin İkinci Qarabağ müharibəsi dövründə xarici mətbuata müsahibələrinin birində ona ünvanlanan "Sizə ən çox təsir edən, kədərləndirən, ən çox sevindirən nələr oldu" sualına cavabının bu gün Vətən müharibəsi mövzusuna həssas yanaşmayan, bu mövzudan ucuz reytinq naminə istifadə etməyə çalışan qeyri-peşəkarlara və sosial şəbəkə istifadəçilərinə tutarlı cavab olduğunu bildirib: "Dövlətimizin başçısı İlham Əliyev suala cavabında bildirmişdir ki, məni ən çox kədərləndirən həm mülki vətəndaşlar, həm də əsgərlər arasında itkilərimizdir. Gənc əsgərlərimiz fədakarlıq, rəşadət göstərərək doğma torpaqları uğrunda şəhid olurlar. Bu, xalqımız, onların yaxınları, valideynləri üçün böyük faciədir. Ona görə də hər bir azərbaycanlının həlak olması mənim üçün ən böyük üzüntüdür. Ən çox sevindirən isə Azərbaycan xalqının iradəsidir. Çünki mərmi altında yaşayan insan yerindən tərpənmir. Bildirirlər ki, təki "Vətən sağ olsun!"

Baş redaktor vurğulayıb ki, həssas şəhid mövzusu ilə manipulyasiya etmək həm şəhidlərin ruhuna, həm də cəmiyyətə qarşı hörmətsizlikdir: "İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşərkən dövlətimizin başçısının söylədiyi fikirlər də hər birimizdə sözügedən mövzu ilə bağlı məsuliyyət hissinin artmasında stimulverici amil olmalıdır. "Azərbaycan sizin sayənizdə yeni bir dövrə qədəm qoyacaq" söyləyən dövlətimizin başçısı bildirmişdir ki, ona görə müharibə başa çatandan dərhal sonra sizinlə görüşməyə gəlmişəm ki, öz hörmətimi ifadə edim. Sizin valideynlərinizə öz təşəkkürümü bildirim ki, dövlət üçün belə qəhrəman övladlar yetişdiriblər. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam".

V.Rəhimzadə bildirib ki. dövlətimizin bu diqqət və qayğısı fonunda feyk xəbərlər yayan bəzi sosial şəbəkə istifadəçilərinin və bəzi peşəkarlıqdan uzaq üzdəniraq jurnalistlərin məqsəd və məramları özünü daha açıq şəkildə büruzə verir: "Unutmayaq ki, belə həssas mövzularla manipulyasiya etmək heç kimə başucalığı gətirə bilməz. Əksinə ictimai qınaq belə ünsürlər üçün ən böyük cəza olar".

**Ceyhun Rasimoğlu**

# Azərbaycanlı hüquq müdafiəçisi Solovyovu məhkəməyə verdi



Beynəlxalq İnsan Hüquqlarını Müdafiə Komitəsinin (CIPDH) Azərbaycan üzrə komissarı vəzifəsini icra edən, ehtiyatda olan zabit, politoloq Elçin Axundzadə ötən il oktyabrın 19-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya, Baş prokuror Kamran Əliyevə, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə və Prezidentin köməkçisi, Prezident Administrasiyasının Hüquqmühafizə orqanları ilə iş şəbəsinin müdiri Fuad Ələsgərova rusiyalı televiziya aparıcısı, jurnalist Vladimir Solovyova qarşı cinayət işi başlanılması xahişi ilə müraciət etmişdi. Elçin Axundzadə bildirib ki, o fevralın 1-də Solovyova qarşı cinayət işi başlanılması xahişinə əsasən ifadə vermək üçün Respublika Baş Prokurorluğunun Baş İstintaq İdarəsinə dəvət edilib.

Elçin Axundzadə müraciətində, Solovyovun Qarabağdakı müharibənin müzakirəsinə həsr etdiyi proqramlarında açıq-aşkar ermənipərəst mövqe tutaraq, yalnız Azərbaycan qanunvericiliyini pozmadığını, xarici muzdluları açıq şəkildə Ermənistanın hərbi heyətinə qoşulmağa çağırdığını, Azərbaycan xalqını və Prezidentini təhqir etdiyini əsas götürərək iddia qaldırıb.

"Jurnalist Dağlıq Qarabağı "Artsax" adlandıraraq, publik şəkildə Azərbaycanın ərazi bütövlüyünə şübhə altına alırdı.Solovyovun qanunları pozduğu bütün epizodları əks etdirən ifadəmi yazdım. Bununla əlaqədar Baş İdarədə araşdırma başlayıb. Azərbaycan qanunlarını və beynəlxalq hüquq normalarını pozan hər kəs əməllərinə görə cavab verməlidir. Mən bu döyüş meydanında hələlik təkəm. Ermənilər informasiya müharibəsini davam etdirirlər və revanş arzularını açıq elan edirlər. Biz susub otura bilmərik",- deyə Axundzadə bildirib.

Qeyd edək ki, bir müddət öncə Solovyovun sosial şəbəkələr üzərindən verdiyi açıqlama Azərbaycanda böyük rezonans doğurmuşdu. Belə ki, o Azərbaycana nifrətini arvadının ona həmyerlimiz olan bir tərəvəz satıcısının xəyanəti ilə əlaqələndirmişdi.

"Məni Azərbaycana nifrət etməkdə və erməniləri dəstəkləməkdə suçlayırlar. Ancaq nahaq yerə... Axı niyə başqa mövqe tutmalıyam? Siz mənim Azərbaycana qarşı nifrətimin səbəbini bilirsiniz? Birinci arvadımın mənə məhz bir azərbaycanlı ilə xəyanət etdiyini hələ də unuda bilmirəm, arvadımın mənə xəyanət etdiyi oğlan adı tərəvəz satıcısıydı. Bu məqam mənim üçün hədsiz aşağılayıcıdır..." Əslində bu Solovyovun qərəzli mövqeyinin etirafıdır, əlbəttə əgər erməni diasporundan külli miqdarda pul alaraq böhtan və iftira atmaq cinayətini ört - basdır etmək istəmirsə.

# 15 fevraldan V-IX siniflərdə dərslər bərpa olunur



2021-ci il 15 fevral tarixindən Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda yerləşən ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq mərhələsində tədris həftədə 2 dəfə, ibtidai təhsil səviyyəsində (I-IV siniflərdə) həftədə 3 dəfə, ümumi orta təhsil səviyyəsində (V-IX siniflərdə) həftədə 2 dəfə olmaqla bərpa olunur. Bu barədə SİA-ya Təhsil Nazirliyindən məlumat verilib.

# "Hrparak": "Araik Arutunyan pul paylayır"



Ermənistanda dərc edilən "Hraparak" qəzetinin yazdığına görə, "dqr"in "prezidenti" Araik Arutunyan saxta hakimiyyətini saxmamaq üçün müxtəlif adamlara pul paylayır. SİA-ya daxil olan məlumata görə, Arutunyan bu vasitə ilə Rusiya tərəfinə göstərməyə çalşır ki, guya o müstəqil oyunçudur və Nikol Paşinyana heç bir aidiyyatı yoxdur. Halbuki o, bütünlüklə Paşinyanın təsir sferasında qalmaqdadır. Qəzetin yazdığına görə, təkcə son ayda onu mütəmadi şəkildə İrəvana çağırıblar, ötən həftə isə Arutunyan Rusiyaya şəxsi səfər edib. "Bizim Moskvadakı mənbələrimizin bildirdiklərinə görə, səfərin əsas məqsədi Qarabağ "prezidentinin" başqa insanların adlarına sənədləşdirilmiş biznesi ilə bağlı problemlərin həll edilməsindən ibarət olub", yazan "Hraparak" əlavə edib ki, son zamanlar Arutunyan özünün köhnə və yeni əhatəsindən xahiş edir ki, onlar "artsaxa" yardımlar etsinlər.

"O, paralel olaraq müxtəlif adamlara pul paylayır ki, öz hakimiyyətini qoruyub-saxlasın. Bundan əlavə, Araik Arutunyanın "təhlükəsizlik şurasının katibi" Vitali Balasanyanla da münasibətləri dramatik həddə çatmaqdadır. O, təhlükəni hiss edir və hakimiyyətini möhkəmləndirməyə çalışır", deyə erməni qəzeti yazır.

**Rövşən RƏSULOV**

# Minatəmizləmə işləri elə aparılmalıdır ki, qısa müddətdə bərpa işlərinə start verilsin




***Dövlətimizin başçısı İlham Əliyev bugünlərdə Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən prioritetlər sırasında Azərbaycanda minatəmizləmə əməliyyatları üzrə milli standartların hazırlanması xüsusi qeyd edilmişdir.***

"Böyük Qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik." Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev dəfələrlə Azərbaycan xalqına müraciətlərində bu məqama da diqqət yönəldirdi ki, düşmənə yumruq göstərmişdim: "Demişdim ki, bu yumruq elə belə yumruq deyil... Bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam."

Artıq Dağlıq Qarabağ münaqişəsi arxada qalıb. İşğaldan azad edilmiş ərazilərimizdə quruculuq və bərpa işləri bugünümüzün əsas tələbləri sırasındadır. 2021-ci il məhz tariximizdə Böyük Qayıdışın reallaşdığı il kimi xarakterizə ediləcək. "Artıq mən qaçqın deyiləm" söyləyən soydaşlarımız torpaqlarımız işğaldan azad edildiyi gündən öz doğma yurd-yuvalarına qayıtmağa tələsir və o günü səbirsizliklə gözləyirlər. Hətta həmin ərazilərə gedib, evlərini, uşaqlıq illərini xatırlamaq üçün hər bir kəndi, məhləni qarış-qarış gəzmək istəyini gerçəkləşdirənlər də var. Bu isə bədbəxt hadisələrin baş verməsi ilə nəticələnir. Unutmayaq ki, mənfur düşmən işğaldan sonra nəinki bütün evləri, infrastrukturu, bütün tarixi abidələrimizi dağıdıb, eyni zamanda, hər tərəfi minalayıb. Təkcə təmas xəttinə yaxın olan əraziləri yox, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri minalayıb. Quruculuq və bərpa işlərindən öncə bu ərazilərin minalardan təmizlənməsi əsasdır, ilkin mərhələdir. Bu ərazilərdə işlərə başlanılan sahələr minalardan təmizlənib. Təhlükəsizliyi təmin etmədən bərpa işlərinə başlanılması qeyri-mümkündür.

Dövlətimizin başçısı İlham Əliyev bugünlərdə Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bu məsələlərə xüsusi diqqət göstərmişdir. "Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir" söyləyən ölkə Prezidenti bildirmişdir ki, bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Bu ərazilərdə istənilən fəallıq, inkişaf minalardan təmizləmə işindən asılıdır: "Ona görə, biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın."

Cənab İlham Əliyev bunun üçün işin düzgün təşkil olunmasının vacibliyini bildirir. Təşkilatlanma işi düzgün həll edilməlidir. İşin keyfiyyəti təbii ki, ilk növbədə yüksək ixtisaslı kadrlardan asılıdır. Dövlətimizin başçısı İlham Əliyev inkişafa, tərəqqiyə yol açan islahatlardan bəhs edərkən daim kadr potensialının yaradılmasının gərəkliyini diqqətə çatdırır. Müasir texnologiyaların həyatımıza yol açdığı dövrdə bu məsələnin aktuallığı daha aydın şəkildə özünü büruzə verir. Cənab İlham Əliyev Vüqar Süleymanovu videoformatda qəbul edərkən də yeni yaradılan Minatəmizləmə Agentliyinə peşəkar kadrların cəlb edilməsinin prioritetliyini açıqlamışdır. Çünki işğaldan azad edilmiş torpaqlarda işlərin sürətlə, keyfiyyətlə aparılması üçün Agentliyin daha da böyük işçi qüvvəsi olmalıdır.

Yeni texnikanın alınması da vacib məsələlərdən biridir. Cənab İlham Əliyev son illərdə bu sahədə texnoloji inkişafın özünü daha aydın şəkildə göstərdiyini vurğulayır. Mövcud mexanizmlər, texnika işin sürətini, eyni zamanda, keyfiyyətini artırmağa geniş imkanlar yaradır. Hər dövrün, zamanın tələblərinə uyğun təkmilləşmə yeni texnologiyaların da həyatımızın bütün sahələrində tətbiqini aktuallaşdırır. Əsas çağırış budur ki, Böyük Qayıdış tezliklə reallığa çevrilsin. Çünki 30 ilə yaxın müddətdə torpaq həsrəti ilə yaşayan qaçqın və məcburi köçkünlərimiz dövlətimizin onlar üçün lazımi şəraiti yaratmasına baxmayaraq, öz doğma yurd-yuvalarına qayıtmağı, orada həyatı canlandırmağı istəyirlər. Dövlətimizin başçısı İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva daim qaçqın və məcburi köçkünlərlə görüşlərində bu fikri xüsusi qeyd edirdilər ki, yaradılan bu şərait müvəqqəti xarakter daşıyır. Tezliklə torpaqlarımız işğaldan azad ediləcək, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaq, yeni həyat başlayacaq.

Dövlətimizin başçısı Vüqar Süleymanovu videoformatda qəbul edərkən də bu məqamı xüsusi qeyd etmişdir ki, keçmiş köçkünlərimiz 30 il Vətən həsrəti ilə yaşayıblar. Ona görə minatəmizləmə işləri elə aparılmalıdır ki, biz qısa müddət ərzində bərpa işlərinə start verə bilək və beləliklə, vətəndaşlar inşaat işləri başa çatandan sonra öz torpaqlarına qayıda bilsinlər. Birinci dərəcəli vəzifə minalardan təmizləmə işləridir. Sonra ziyanın qiymətləndirilməsi, ondan sonra artıq bərpa işləri aparılacaq.

Peyk görüntülərindən də səmərəli istifadə etməliyik. Həm müharibə dövründə, həm də müharibədən sonra təbii ki, bərpa işlərində peyk məlumatlarından istifadə edilir. Ermənilər tərəfindən qırılmış meşələrin həcmi məhz peyklərdən müəyyən edilib. Bu statistika da açıqlanır ki, meşələrimizin 54 min hektarı Ermənistan rəhbərliyi tərəfindən qırılıb, talan edilib və satılıb. Peyk görüntüləri, həmçinin minalarla daha çox çirklənmiş yerləri də təsbit edir. Ona görə bu imkanlardan da səmərəli istifadə etməliyik.

Nəzərdə tutulan işlərin vaxtında başa çatması üçün xarici şirkətlərin cəlbi də əsas məsələlər sırasındadır. Hazırda xarici şirkətlərlə danışıqlar gedir: "Hesab edirəm ki, bununla paralel olaraq, yerli şirkətlər də yarana bilər. Çünki bizdə bu vaxta qədər belə təcrübə olmamışdır. Ancaq işin həcmini nəzərə alaraq, mən hesab edirəm ki, özəl şirkətlər yarana bilər, Azərbaycanın biznes dairələri burada öz sözünü deyə bilər və beləliklə, biz bu işləri daha qısa müddət ərzində görə bilərik. Əlbəttə ki, bu özəl şirkətlər müvafiq texnika ilə təmin edilməlidir."

Prioritetlər sırasında Azərbaycanda minatəmizləmə əməliyyatları üzrə milli standartların hazırlanması da dayanır. Hər sahədə təcrübəsi nümunə olan Azərbaycan bu sahədə də təkmil standartını ortaya qoyacaq: "Dövlət Minatəmizləmə Agentliyimiz ölkə daxilində bütün işləri başa çatdırandan sonra bu təcrübədən istifadə edərək, xarici ölkələrdə də fəaliyyət göstərə, podratçı kimi işləyə bilər. Beynəlxalq təşkilatlar tərəfindən də bizim bu agentliyin xidmətindən istifadə oluna bilər. Bax, strategiyanı belə qurun. Yəni, bu, agentliyin gələcək fəaliyyəti üçün uzunmüddətli strategiya olmalıdır."

Ümumiyyətlə, işğaldan azad edilmiş torpaqların bərpası və inkişafı konsepsiyası hazırlanıb. Bu istiqamətdə dövlət tərəfindən həyata keçiriləcək tədbirlər və həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də qeyri-neft sektoruna yeni yerli və xarici investisiyaların cəlb olunmasına zəmin yaradacaq. Bu məsələyə kompleks yanaşmanı təmin etmək üçün dörd mərhələdə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur. İlkin mərhələdə idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlərdə isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələsini özündə ehtiva edir. Hər bir bölgəmizin təbii ehtiyatlarını, ənənəvi iqtisadiyyat sahələrini, nəqliyyat qovşaqlarını, o cümlədən yenidən bərpa olunan nəqliyyat dəhlizlərinə və artıq tikintisinə başlanılmış avtomobil və dəmir yollarına yaxınlığı nəzərə alınaraq, hər bir iqtisadi rayonun profili, ixtisaslaşması nəzərdə tutulub. Artıq idarəetmə istiqamətində dövlətimizin başçısı İlham Əliyev ilk Sərəncamını imzalayıb. İşğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsinin təyin edilməsi ilə bağlı ilk addım qeyd etdiyimiz kimi, Qarabağın ürəyi Şuşada oldu.

İşğaldan azad olunmuş ərazilərin bərpası üçün maliyyə təminatı yaradılıb. Azərbaycan Ordusunun təchizatı, Azərbaycan sərhədlərinin bərpa edilməsi üzrə işlərin maliyyələşdirilməsi də nəzərə alınmaqla, ümumilikdə bu işlərə 4,6 milyard manat maliyyə təminatı göstərilib. Sahibkarlara güzəştli əsaslarla kreditlərin ayrılması üçün müəyyən dövlət zəmanətlərinin verilməsi, həmin zəmanətli kreditlərin faiz dərəcələrinin subsidiyalaşdırılması, ipoteka proqramlarının həyata keçirilməsi, sosial mənzillərin tikintisi və digər məqsədlər üçün 152 milyon manat vəsait nəzərdə tutulub. İlkin mərhələnin, ərazilərin minalardan təmizlənməsi işinin tezliklə başa çatması işğaldan azad edilmiş ərazilərin bərpası və quruculuq işləri ilə bağlı konsepsiyanın icrasını sürətləndirəcək, Qarabağ cənnət məkan kimi dünyanın diqqətində olacaq.

**Yeganə Əliyeva**

## Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə sənədli film hazırlanıb




Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə "Zor təfəkkürü" ("Стиль мышления: вандализм" - "Thinking style: vandalism") adlı sənədli film hazırlanıb. SİA-nın məlumatına görə, rus dilində (ingilis dilində subtitrlərlə) hazırlanan filmin başlıca məqsədi beynəlxalq ictimaiyyətin diqqətini ermənilərin tarixdən bu günə qədər əzəli Azərbaycan torpaqlarında tarixi-dini, eləcə də mədəni abidələrimizə qarşı törətdiyi vandalizm aktlarına yönəltmək və bu istiqamətdə atılmış addımlara töhfə verməkdən ibarətdir.

## "Armenianreport" Putini hədəfə aldı: sonu Qəddafi kimi olacaq



Putin həm də Ermənistan üzərində öz hakimiyyətini tətbiq edən sovet DTK-sı ənənəsinin varisidir". SİA xəbər verir ki, bu haqda Armenianreport-un analitik yazarı Qraçya Qalustyan yazıb. Müxalifət lideri Navalnının həbsinin ardınca Rusiya prezidentini hədəfə alan və ona qarşı ittihamlar irəli sürülən yazıda o da iddia edilir ki, Ermənistan parlamentindəki terror aktının törədilməsi də Putinin işi olub.

"O bizim parlamentdə terror aktı törədib. Məhz bu hadisədən sonra o öz adamları Robert Koçaryanı və Serj Sarqsyanı hakimiyyətə gətirib. Məhz bu amil bizim siyasi sahəmizə "rus dünyası" kütləsini daxil edib. Məhz həmin vəziyyət 2008-ci ildəki seçkilərin saxtalaşdırılmasına və etirazçı əhalinin qanının tökülməsinə səbəb olub. Məhz bu kimi hallar metodik olaraq Ermənistanın talan edilməsinə suverenlik və müstəqillik atributlarının itirilməsinə səbəb olub", deyə armenianreportun analitiki yazıb və sonda qeyd edib ki, Putin devriləcək və sonu Qəddafinin sonu kimi olacaq.

**Rövşən RƏSULOV**

# Xatirəsi ürəklərdə yaşayan böyük sənətkar...

*Azərbaycan musiqisinə şöhrət gətirən məşhur sənət korifeyləri sırasında böyük bəstəkar, tanınmış alim-pedaqoq və ictimai xadim, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Qarayevin xüsusi yeri var. Onun əbədiyaşar musiqisi neçə-neçə illərdir ki, dünyanın nəhəng konsert salonlarında səslənir. Hər bir əsərinin premyerası musiqi həyatımızın xüsusi hadisəsinə, bayramına çevrilib, mədəni həyatımızda bir dönüş yaradıb. SİA-nın məlumatına görə, adını mədəniyyət tariximizə böyük hərflərlə yazdırmış bu böyük sənətkarın anadan olmasından 103 il ötür.*



Qara Qarayev 1918-ci il fevralın 5-də Bakı şəhərində məşhur həkim-pediatr Əbülfəs Qarayevin və Sona xanım İsgəndər qızının ailəsində anadan olub. O, nəsildə özünü musiqi sənətinə həsr etmiş ilk adamdır. Ata tərəfi Abşeronun Fatmayı kəndindən, ana babası İsgəndər bəy Axundov isə Şamaxının məşhur nəsillərindən olub. Dünya şöhrətli bəstəkar Qara Qarayevin əsərləri SSRİ-nin əksər şəhərlərində, Los-Anceles, Polşa, Misir, İspaniya, İtaliya, Paris, Yaponiya və Almaniyada keçirilən möhtəşəm musiqi tədbirlərində müvəffəqiyyətlə oynanılıb.

Onun Nizaminin "Yeddi gözəl" poemasından bəhrələnərək yazdığı "Yeddi gözəl" və Cənubi Afrika yazıçısı Piter Abrahamsının romanı əsasında yazdığı "İldırımlı yollarla" baletləri dünyanın bir sıra ölkələrində uğurla göstərilib. Bəstəkarın Birinci Simfoniyası Azərbaycanın ilk simfoniyaları arasında görkəmli yer tutur. "Don Kixot" simfonik qravüraları, "Leyli və Məcnun" (Nizaminin poeması əsasında), "Vyetnam süitası" əsərləri Qara Qarayev yaradıcılığının dəyərli səhifələridir. O, çoxsaylı filmlərə, o cümlədən "Dənizi fəth edənlər", "Qızıl eşelon", "Xəzər neftçiləri haqqında povest", "Uzaq sahillərdə" və digər filmlərə musiqi bəstələyib.

Qara Qarayev opera janrında da özünü sınayıb. O, "Vətən" operasının (C.Hacıyev ilə birlikdə) və fransız yazıçısı Anri Barbüsün əsəri əsasında "Zəriflik" monooperasının müəllifidir. Bəstəkar, həmçinin Azərbaycan musiqisi üçün yeni olan müzikl janrına müraciət edərək fransız dramaturqu E.Rostanın "Sirano de Brejerak" komediyası əsasında "Çılğın qaskoniyalı" müziklini yaradıb.

Qara Qarayev kamera instrumental janrları ilə də maraqlanıb. 24 prelüd silsiləsi, skripka və fortepiano üçün sonata, simli kvartetlər bəstəkarın yaradıcılıq üslubunun təzahürü kimi qiymətləndirilir. Q.Qarayev A.Puşkinin şeirləri əsasında yaratdığı "Mən sizi sevirdim" və "Gürcüstan təpələrində" romansları, "Könül mahnısı", "Səadət mahnısı" kantataları Azərbaycan musiqisinin gözəl nümunələridir.

Qara Qarayev xalq musiqisinə, torpağına, doğma Abşerona iliyinə qədər bağlı bəstəkar idi. Tələbələrinə də böyük sevgi və həssaslıqla yanaşardı. Onları "açıq kitab" kimi oxuyar, yaradıcı potensialını duyar, fərdi üslublarını qoruyar, öz dəst-xətlərini müəyyənləşdirməyə yönəldərdi. Bəlkə də atasının arzusunu yerinə yetirmişdi o... Bir təbib kimi, sağlam cəmiyyətin böyüməsində onların getdiyi yola "işıq" salıb, onlara bu yolla getmələrini, ən əsası xalq musiqisi intonasiyalarına olduqca ehtiyatla yanaşmanı tövsiyə edərdi. "...Biz soyuqqanlılıqla musiqi xəzinəmizin üst qatlarından asan mənimsənilərək istifadə etmirikmi? Xalq musiqisi doğrudan da tükənməzdir, amma onun zənginliyi tək bu qatlarda deyil, bizim düşündüyümüzdən daha dərindədir, neft yataqları kimi və lazımi "texniki yazılara" yiyələnib, o dərinliyə getmənin vaxtı çatmışdır". Bu da Üzeyir bəyin getdiyi yolun davamı idi... Bu yolun davamçıları onun tələbələri idi... B.Yermolayev, H.Xanməmmədov, R.Hacıyev, A.Məlikov, X.Mirzəzadə, T.Bakıxanov, V.Adıgözəlov, O.Zülfüqarov, M.Mirzəyev, V.Şainski, L.Vanşteyn, M.Quliyev, N.Şəfiyeva, S.İbrahimova, F.Qarayev, F.Əlizadə, İ.Hacıbəyov, R.Həsənova, A.Cəfərova, R.Şəfəq, E.İbrahimova, E.Dadaşova, A.Dadaşov, A.Əzimov, C.Abbasov.... Bu siyahını onun tələbələri davam etdirərək növbəti nəsillərə aparır... Bir ağacın kökündən qidalanaraq böyüyən, budaqlara şaxələnərək ucalan qollar kimi...

"Şagirdlər bizim ən ciddi hakimlərimizdir. Əgər müəllim dərsdə bir fikir söyləyib, həyatda isə başqa cür hərəkət edərsə, bu, müəllimin mənəvi məğlubiyyətidir". Tələbələrinin xatirələrində Qara Qarayev təkcə bəstəkar deyil, geniş erudisiyaya malik ziyalı, alim, filosof, yetirmələrinin şəxsiyyətini "yonan" heykəltəraş, şair təbiətli əbədi romantik, bəzən Don Kixot, bəzən də Sirano kimi yaşayır... Amma hər zaman sözün əsl mənasında sənət fədaisi, Vətən, torpaq eşqi ilə yaşayan bir Məcnun idi o...

Planlaşdırdığı layihələri çox idi. "Hamlet", "Leyli və Məcnun", "Don Juan" baletləri, "Gözəl Yusif" operası, "Oxuyan daşlar" simfonik süitası, simfocaz üçün konsert, "Uşaqsız şəhər" oratoriyası... "Qərblə Şərq lap əvvəldən içimdədir"- deyərdi. Arzular tükənməz olur.

Otuz doqquz il bundan əvvəl, 1982-ci il mayın 13-də 64 yaşında Moskvada gözlərini əbədi yuman sənətkar doğma Vətənində torpağa tapşırıldı...

Ölümündən əvvəl dediyi sözlər ən həzin və kədərli nəğmə kimi bu gün də eşidilməkdədir: "Keçdiyim yola nəzər salmayaraq dünyanı tərk etməyə hazırlaşıram, gözlərim yaşla doludur... Həyatımın ən gözəl çağında malik ola bilmədiyimi itirdim. Günəş mənimçün işıq saçmır, külək mənimçün əsmir, dəniz mənimlə danışmırdı. Arxaya baxmadan gedirəm, çünki geriyə dönmək ürəkağrısı qədər ağırdır. Ölüm - yeni həyatın dünyaya gəlməsidir".

Sevdiyi dəniz kənarı, Bakı küləyi, Fatmayı bağı və əbədi yaşayan musiqisi... "Doğum günü keçirməyi sevməzdi. Öz ailəmiz olardı. Anam, bacım Züleyxa və mən... Onun xatirəsini yaşadan ən gözəl hədiyyə isə - onun hər zaman səslənən musiqisidir", - deyir oğlu Fərəc Qarayev.

# "Türkiyənin yanımızda olması qürurvericidir"



Müsahibimiz Milli Məclisin deputatı Azər Badamovdur

**- Azər müəllim, Ermənistan zenit-raket kompleksini Xankəndindən çıxarmağa başladığı bildirilir. Bu fakt Rusiya Türkiyə birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlamasına cavab olaraq atıldığını demək olar?**

- Ermənistanın Xankəndindən zenit-raket komplekslərini çıxarması gözləniləndir. Çünki, Qarabağ torpaqları Azərbaycanın əraziləridir. Torpaqlarımızda icazəmiz olmadan heç bir xarici ölkənin hərbi texnikası və canlı qüvvəsi olmamalıdır. Rusiya sülhməramlıların nəzarətində olan ərazilərdə erməni hərbiçiləri qalmamalıdır. Bu ərazilərdən nəinki hava hücumundan müdafiə sistemlərini, həm də erməni silahlılarını da çıxarmalıdırlar. Monitorinq Mərkəzi yaradılana qədər bu ərazilərdə demək olar ki, nəzarətimiz yox idi. Türkiyənin Monitorinq Mərkəzində fəaliyyətə başlanmasından sonra bu ərazilərdə nə baş verdiyini müşahidə etmək imkanı olur. 10 noyabrda imzalanmış üçtərəfli razılaşmaya əsasən ermənilərin canlı qüvvəsi və hərbi texnikaları Rusiya sülhməramlıların gəlişi ilə paralel ölkəmizi tərk etməlidirlər. Çox təəssüf ki, bu baş vermədi. İndi isə Monitorinq Mərkəzi ərazilərimizdə ağır texnikaları müşahidə edir və qarşı tərəfə bunun yol verilməzliyi çatdırılır. Düşünürəm ki, əgər bu gün hava hücumundan müdafiə sistemləri Xankəndindən çıxarılırsa, bu, Birgə Monitorinq Mərkəzinin fəaliyyətinin təsiri sayəsində baş verir.

**- Zenit-raket kompleksləri əslində Ermənistanın deyil, Rusiyanındır. Bu yayılan məlumatlar nə dərəcədə düzdür?**

- "Zenit-raket kompleksləri Rusiyanındır" düşüncəsi ilə razı deyiləm. Rusiyanın yox, Rusiya istehsalıdır, ifadəsi daha doğru olar. Çünki, ermənilərin silah-sursat almağa iqtisadi imkanları yoxdur. Onların əlində nə silahları ya güzəştli şərtlərlə, ya da pulsuz Rusiya verir. Əks halda 44 günlük Vətən müharibəsindən sonra erməninin əlində heç bir silahı qalmazdı. Görünən odur ki, bu gün ermənilər revanşist bəyanatlarla çıxışlar edirlərsə, onların arxasında yenə havadarları dayanmışdır. Çünki, Vətən müharibəsində düçar olunduğu məğlubiyyətindən sonra ermənilər uzun müddət heç dərindən nəfəs də ala bilməzdilər. Bu gün onlara süni nəfəs verən yenə havadarları və regionda sabitliyin olmamasına maraqlı tərəflərdir. Bütün bunlara baxmayaraq Azərbaycan öz ordusunu daha da müasirləşdirir, gücləndirir. Həm də Türkiyə bəyan edir ki, lazım olan vaxtı lazımlı şəkildə hər zaman Azərbaycanın yanındadır. Türkiyənin yanımızda olması qürurvericidir.

**- Xocalı və Xocalı ətrafı kənd və qəsəbələrin yaxın günlərdə Azərbaycana təhvil verəcəyi bildirilir. Bu məlumatla bağlı nə deyə bilərsiniz?**

- Nəinki, Xocalı və Xocalı ətrafı kənd və qəsəbələri, hətta ermənilərin nəzarətindəki bütün ərazilərimiz Azərbaycana qayıtmalıdır. Əgər erməni mətbuatında belə fikirləri səsləndirirlərsə, bu onların insanları bu prosesə hazırlanmağından irəli gəldiyini düşünürəm. Azərbaycanın müzəffər ordusu döyüş meydanında öz sözünü demişdir. İndi hamı bilir ki, Dağlıq Qarabağın statusu mövzusu gündəmdən çıxmışdır. Bu ərazilərdə yaşayan ermənilər cəzaçəkmə müəssisələrindəki məhbuslar kimidirlər. Onları Azərbaycana güclə qaytarıblar. Qayıdanlar düşünürlər ki, dəyər-dəyməzə əmlaklarını satıb tez bir zamanda bir dəfəlik ərazilərimizi tərk etsinlər. Qarabağa qayıtmış ermənilərin yaşayışı acınacaqlıdır. Bu gün onlar ancaq Rusiyanın humanitar yardımları ilə yaşayırlar. Onların heç bir gəlir mənbəyi yoxdur. Azərbaycan ərazilərini işğaldan azad edildikdən sonra onların gedib işləmək imkanları tam məhdudlaşmışdır. Perspektivdə də onların Azərbaycanın vətəndaşlığını alıb bizimlə birgə yaşamaqdan ayrı yolu da yoxdur. Kimlər öz başına çarə edə biləcəklər rədd olub gedəcəklər. Kimlərinsə getməyə yerləri və imkanları yoxdursa, onlar qalıb bizim vətəndaşlığını alıb yaşamaqlarına davam edəcəklər. Rusiya sülhməramlıları da torpaqlarımızda əbədi qalmayacaqlar. Onların da ərazilərimizdə olma müddətləri razılaşdırılmışdır. Gec-tez bütün xarici hərbiçilər ölkəmizi tərk edəcəklər. Dağlıq Qarabağın gələcək taleyi ancaq Azərbaycanla bir yerdə olmaqdır.

**- Maraqlıdır ki, Rusiya Türkiyə birgə Monitorinq Mərkəzi fəaliyyətə başladıqdan sonra Qazax istiqamətində atəşkəs pozuldu. Bu atəşkəsin pozulması da maraqlı tərəflərin olduğunu düşünmək olar?**

- Belə düşünmürəm. Ona görə ki, atəşkəsin pozulması Qarabağdan kənarda, Qazax ərazisində baş vermişdir. Bütün maraqlı tərəflər bilirlər ki, işğaldan azad olunmuş ərazilərdən kənarda silahlı toqquşma baş verərsə, buna sülhməramlılar cavabdeh deyil. Həm də bilirlər ki, hər bir təxribatın qarşısı silahlı qüvvələrimiz tərəfindən ciddi şəkildə alınır. Baş vermiş təxribatı isə Ermənistandakı xaoslu vəziyyəti ilə əlaqələndirərdim. Erməni müxalifəti müxtəlif yollarla Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq istəyir. Erməni müxalifəti gündəlik meydan hərəkatları keçirirlər. Görürlər ki, bir nəticəyə nail oluna bilmirlər, ona görə də Azərbaycanla sərhəddə təxribata əl atırlar ki, yeni münaqişə ocağını yaratsınlar. Çünki, erməni ordusunda da özbaşınalıqdır. Bütün silahlı hərbi birləşmələri Paşinyanın nəzarətində deyillər. Müxalifətin güclənməsini və Paşinyanın devriləcəyini düşünərək, onlara dəstək verənlər erməni ordusunda çoxdur. Düşünürəm ki, baş verən təxribat da məhz onların əli ilə olmuşdur.

**Gülyana**

# Baş Prokurorluq sosial şəbəkədə yalan məlumat yayan qadına xəbərdarlıq edib

*Baş Prokurorluq məlumat yayıb. Qurumun Mətbuat xidmətindən SİA-ya daxil olan məlumatda deyilir: "Vətən Müharibəsi ilə bağlı mövzulara münasibətdə həssaslıq nümayiş etdirilməsi, yayılmış informasiyaların düzgünlüyünün yoxlanılması ilə bağlı dəfələrlə tövsiyyələr verilməsinə baxmayaraq, təəssüf ki, bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçiləri tərəfindən süni ajiotaj yaratmaq məqsədilə məlumatın dəqiqliyi yoxlanılmadan informasiyaların ictimailəşdirilməsi hallarına rast gəlinir.*



Belə ki, Azərbaycan Respublikasının Baş Prokurorluğunda aparılmış araşdırmalarla Rüstəmova Əfsanə Süleyman qızının "facebook" sosial şəbəkəsində özünə məxsus səhifə vasitəsilə iki övladının Vətən müharibəsində itkin düşdüyünü bildirən Rəna Kazımova adlı qadının videogörüntülərini ictimailəşdirməsi, övladlarından xəbər ala bilmədiyini diqqətə çatdıran həmin qadına köməklik göstərilməsi ilə bağlı çağırış etməsi müəyyən edilmişdir.

Əfsanə Rüstəmova tərəfindən yerləşdirilən məlumatlar yoxlanılarkən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının və inzibati xətalar haqqında qanunvericiliyinin tələblərinin pozulması aşkar edilib.

Qeyd edilənlərlə əlaqədar Əfsanə Rüstəmova Baş Prokurorluğa dəvət edilərək "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq ictimai rəyi çaşdırmaq, sensasiya naminə dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmaq məqsədi güdməklə konkret faktlara əsaslanmayan məlumatların qanunsuz olaraq yayılmasını davam etdirəcəyi təqdirdə barəsində cinayət məsuliyyəti də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulan daha ciddi tədbirlər görüləcəyi barədə rəsmi xəbərdarlıq edilib".

"Vətəndaşlarımızdan və kütləvi informasiya vasitələrindən yaranmış hazırkı həssas vəziyyətdə maksimum məsuliyyətli olmaq və dövlət tərəfindən həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərmələri tələb olunmaqla bir daha nəzərə çatdırılır ki, ictimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və qəsdən bu qəbildən olan informasiyaların yayılmasını həyata keçirən kütləvi informasiya vasitələri, o cümlədən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlər görüləcəkdir", - Mətbuat xidmətindən bildirilib.

# YAP İsmayıllı rayon təşkilatı şəhid ailələrini ziyarət edib

Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatı Vətən Müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin əziz xatirəsini daim uca tutur, müntəzəm olaraq onların ailələrini ziyarət edirlər. Növbəti dəfə YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova, təşkilatın sədr müavinləri və aparat əməkdaşları Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Mirzəliyev Aqil Mehman oğlunun, Həmzəyev Novruz Bəkir oğlunun və Dəmirov Vüsal Aydın oğlunun ailələrini ziyarət etdilər.



Görüşdə rayon təşkilatının sədri Sevil Əhmədova şəhid ailələrinin qayğıları ilə maraqlanaraq bildirdi ki, şəhidlərimiz kimi, onların ailə üzvləri də bizim üçün çox qiymətlidir. Onların övladı ali bir amal - Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşərkən şəhidlik zirvəsinə ucalıblar: "Möhtəşəm Zəfərimizin qəhrəmanları olan şəhidlərimizin xatirəsi həmişə xalqımızın qəlbində yaşayacaq, onların ailələri daim diqqətdə saxlanılacaq. Azərbaycan xalqı qəhrəman övladlarının əziz xatirəsini heç zaman unutmayacaq".

Şəhidlərimizin valideynləri Aynurə Mirzəliyeva, Bəkir Həmzəyev, Nüşabə Dəmirova böyük fəxr hissi ilə şəhidlərimizin qanını yerdə qoymadıqlarına, xalqımıza qələbə sevinci yaşatdıqlarına görə Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevə və müzəffər Azərbaycan ordusuna minnətdarlıq etdilər. Bildirdilər ki,onların övladları igidlik, fədakarlıq, şücaət göstərərək 30 ildir işğal altında olan torpaqlarımızı azad etmiş, bütün şəhidlərimizin qisasını alaraq şəhid olmuşlar. Onlara daim göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildirdilər. Allah bütün Şəhidlərimizə rəhmət eləsin, ruhları şad olsun!

***Zümrüd BAYRAMOVA***

# "Milli Prioritetlər ölkənin sosial-iqtisadi inkişafını yeni mərhələyə çıxaracaq"

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilməsi Azərbaycan 10 illik yolunu müəyyənləşdirir. Növbəti 10 il üçün təsdiqlənən bu Proqramda milli maraqlar və strateji planlamanın vəhdəti, regionun yeni siyasi-iqtisadi reallığı, iqtisadi tərəqqinin ölkənin inkişafını və xalqın rifahını təmin etməsi, milli prioritetlərin mütləq üstünlüyü, bir sözlə dövlətin növbəti 5 strateji prioritetlərində öz əksini tapıb". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi üzvü Məşhur Məmmədov deyib.



Millət vəkili iqtisadi uğurlardan danışarkən xüsusi olaraq vurğulayıb ki, dövlətimizin iqtisadi uğurları ilk növbədə erməni faşizmi üzərində qələbəmizi reallaşdırdı: "Əgər Azərbaycan iqtisadi cəhətdən güclü, beynəlxalq aləmdə sözü keçən bir dövlət olmasaydı 44 günlük müharibəni belə unudulmaz qələbə ilə başa vura bilməzdik. Bu dünya hərb tarixinə qızıl hərflərlə yazılan qələbə olmaqla bərabər, həm də iqtisadiyyatımızın dayanıqlı, xalqın yekdil, ordumuzun güclü olduğunu göstərdi. Məhz Milli Prioritetlərdə əksini tapan əsas vəzifə qüdrətli dövlətin və yüksək rifah cəmiyyətinin yaradılmasıdır ki, bu da ilk növbədə iqtisadi inkişafın təmin edilməsinə, insanların sosial - rifah halının yaxşılaşdırılmasına xidmət edir. Sözsüz ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Prezident İlham Əliyevin son son 17 illik prezidentlik fəaliyyəti müddətində güclü, davamlı və dayanaqlı iqtisadiyyata, güclü orduya, xalqı öz ətrafında birləşdirməyə, dünyada beynəlxalq tərəfdaşlığa nail olunub. Bu İkinci Vətən Müharibəsində bir daha sübut olundu və Azərbaycan bütün sahələrdə bundan sonra da lider dövlət olaraq uğurlara nail olacaq".

"Azərbaycanın yeni sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər dərinləşmiş islahatların növbəti 10 ildə də davam etdiriləcəyindən xəbər verir",-deyən millət vəkili onu da vurğulayıb ki, ən əsası isə Sərəncamda azad olunan ərazilərin sosial iqtisadi inkişafının nəzərdə tutulması öz növbəsində həmin yerlərin inkişafına əvəzsiz töhfələr verəcəyini vurğulayıb: "Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər növbəti on il ərzində Azərbaycanda müşahidə olunan sosial-iqtisadi inkişafı tamamilə yeni, keyfiyyətcə daha yüksək mərhələyə çıxaracaq. Eyni zamanda, rəqabət qabiliyyətinin genişləndirilməsi və sahibkarların dəstəklənməsi, sahibkarlar üçün yeni tətbiq mexanizmlərindən istifadə olunması da hədəflər siyahısındadır. Bu bir tərəfdən daxili bazarda rəqabətin gücləndirilməsinə, yerli istehsalın genişləndirilməsinə, digər tərəfdən Azərbaycanın qeyri-neft ixracatının artmasına gətirib çıxaracaq".

Millət vəkili sosial təminatla bağlı islahatların, o cümlədən pensiya islahatlarının da davam etdirilməsi, minimum və orta pensiya məbləğinin artırılması nəzərdə tutulduğunu deyib. Bildirib ki, son 17 il ərzində bu artımlar olub və müavinətlər daxil olmaqla sosial ödənişlərə ayrılan vəsaitlərin həcmində də artımlar olacaq: "Bu isə, dövlətin hər bir vətndaşına, o cümlədən pensiyaçıların hüquqlarının daha yaxından qorunması və onların daha çox pensiya almasına imkan yaradacaq".

Milli Prioritetlərdən olan Böyük qayıdışın da növbəti on ildə uğurla icra olunacağına əminliyini bildirən M.Məmmədov onu da bildirib ki, Böyük qayıdışın təmin olunması çərçivəsində hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların əbədi məskunlaşması üçün böyük əhəmiyyət daşıyacaq. Bunun üçün yeni ərazilərdə layiqli yaşayış təmin edilməli, müasir infrastruktur qurulmalı, rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlıq olmalıdır. Regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin edilməlidir.

Böyük qayıdış da əsas hədəflərdəndir və onun reallaşması mərhələli şəkildə icra olunacaq: "Birinci mərhələdə dəymiş ziyanın qiymətləndirilməsi, daha sonra infrastrukturun formalaşdırılması, növbəti mərhələdə sosial obyektlərin inşa edilməsi və məskunlaşmanın reallaşması həyata keçiriləcək ki, bu da nəticə etibari ilə böyük qayıdışın reallaşmasına imkan yaradacaq. Dövlətimizin başçısı fevralın 4-də Vüqar Süleymanovu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbulda çıxışı zamanı bildirdi ki, azad edilmiş torpaqların minalardan təmizlənməsi işi birinci dərəcəli vəzifədir və bu işlər elə aparılmalıdır ki, işlər başa çatandan sonra hər hansı bir bədbəxt hadisə baş verməsin: "Mən insanların bu addımlarını bir tərəfdən başa düşürəm, onlar uzun illər vətən həsrəti ilə yaşamışlar, hər bir keçmiş məcburi köçkün təzliklə öz doğma torpağına, doğma kəndinə qayıtmaq istəyir, ancaq xahiş edirəm ki, gözləsinlər. Bir qədər gözləsinlər ki, minalardan təmizləmə işləri başa çatsın". Həiçinin də qoydu Bildirdi ki, ilk növbədə, işin düzgün təşkil edilməsi məsələsinə diqqət yetirməlisiniz: "Ona görə, baxın, dünyanın aparıcı istehsalçıları olan şirkətlərin ən müasir texnikası ölkəmizə gətirilməlidir. Çünki işin keyfiyyəti və sürəti bundan asılı olacaq. Bizim keçmiş köçkünlərimiz 30 il vətən həsrəti ilə yaşayıblar. Ona görə minatəmizləmə işləri elə aparılmalıdır ki, biz qısa müddət ərzində bərpa işlərinə start verə biləki və beləliklə, vətəndaşlar inşaat işləri başa çatandan sonra öz torpaqlarına qayıda bilsinlər".

M.Məmmədov onu da bildirib ki, bir sözlə, növbəti 10 illik Milli Prioritetlər ölkənin sosial-iqtisadi inkişafını yeni, keyfiyyətcə daha yüksək mərhələyə çıxaracaq: "Qarşıdakı on il ərzində biz ölkə iqtisadiyyatının inkişafı, sosial ədalətə əsaslanan idarəetmənin formalaşdırılması üçün islahatları davam etdirməliyik. Bu baxımdan Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasında, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsində aparıcı rolu bundan sonra özünü daha qabarıq formada göstərəcək. Dövlət başçımızın dediyi kimi: "Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir".

***RƏFİQƏ HÜSEYNOVA***

# Azərbaycandan Rusiyaya alma tədarükünə icazə verildi



Rusiya fevralın 8-dən etibarən Azərbaycanın 28 müəssisəsindən alma idxalına icazə verib. SİA-nın məlumatına görə, bu barədə Rusiya Baytarlıq və Fitosanitar Nəzarət Federal Xidmətinin bəyanatında deyilir.

Qeyd olunur ki, idxal məhdudiyyətinin aradan qaldırılması barədə qərar Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin təqdim etiyi analiz məlumatları əsasında verilib. Almaların idxalı prosesi Agentliyin təminatı ilə həyata keçiriləcək. Əvvəlki icazələr də nəzərə alınmaqla ümumilikdə Azərbaycanın 38 müəssisəsindən Rusiyaya alma idxalı mümkün olacaq.

# “Dirçəliş Fondu Qarabağa həyatın qaytarılmasında əsas rol oynayacaq”

***“27 sentyabrdan başlanaraq torpaqlarımızın işğaldan azad edilməsi ilə başa çatmış 44 günlük Vətən müharibəsindən sonra yeni reallıqlar yaranıb. Torpaqlarımızın işğaldan azad olunması bu ərazilərin yenidən qurulması və bərpasını həyata keçirməklə müasir bir regiona çevirməsi prioritet olub”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Azər Badamov deyib.***



Deputat bildirib ki, 2021-ci ildə dövlətimizin resurslarının əsasən azad olunmuş torpaqların dirçəldilməsinə yönəldilib: “Ona görə də bu ərazilərdə görüləcək işləri koordinasiya edilərək daha səmərəli işinin təmini üçün Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il fərmanı ilə Qarabağ Dirçəliş Fondu yaradılıb. Qarabağ Dirçəliş Fondunun əsas məqsədi İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsini aparmaqdır”.

A.Badamov vurğulayıb ki, fond həm dövlət vəsaitlərinin xərclənməsinin səmərəliliyini təmin edəcək, həm də özəl sektorun investisiya layihələrini cəlb edilməsi məqsədilə ölkədə və xaricdə təşviqat işləri aparacaqdır: “Həm də Fond Qarabağın Dirçəldilməsində iştirak etmək istəyən şəxslərin ianə edilə biləcək bir təşkilat kimi fəaliyyət göstərəcəkdir. Düşünürəm ki, Fonda təyin olunmuş rəhbər bu işlərin öhdəsindən layiqincə gələcək və doğma Qarabağımıza yenidən həyatın qaytarılmasının aparıcı qüvvəsi olacaqdır”.

***Aysel Məmmədova***

# YAP Tərtər rayon təşkilatının videoformatda müşavirəsi keçirilib



Dünən YAP Tərtər rayon təşkilatının ərazi ilk partiya təşkilat sədrləri və bir qrup partiya fəallarının iştirakı ilə vidoformatda müşavirə keçirib. Rayon təşkilatının sədri Ramiz Şabanov çıxış edərək qeyd edib ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ötən il 44 günlük Vətən müharibəsində əldə etdiyimiz “Zəfər” - 2021-ci ilə daha inamla qədəm qoymağımıza zəmin yaratmışdır: “30 ilədək əsarətdə olan əzəli torpaqlarımız düşmən tapdağından azad edilərək ölkəmizin suverenliyinin göstəricisi olan sərhədlərimizin tam bərpasına nail olduq. Bütün dünyanı çuğlayan COVİD-19 pandemiyasına qarşı mübarizədə ölkə Prezidentimiz cənab İlham Əliyevin yürütdüyü düzgün siyasət nəticəsində uğurlar əldə edərək ölkəmizin bu bəladan daha az itkilərlə çıxmağımız da təmin edilib”.



R.Şabanov bildirib ki, 44 günlük Vətən müharibəsində Tərtər rayonu cəbhənin tam mərkəzində olduğundan rayon mərkəzi və kəndlərimiz düşmənlərin atdıqları müxtəlif növ mərmilərdən ciddi ziyan çəkmiş, 17 nəfər mülki şəxs həlak olmuş, onlarla insanlar bu və ya digər dərəcədə xəsarət almış, yüzlərlə yaşayış evləri, onlarla sosial obyektlər xeyli sayda infrastruktur sıradan çıxmışdır: “Artıq ölkəmizdə azad olunmuş ərazilərdə, cəbhə boyu yerləşən rayonlar və kəndlərimizdə düşmənin vurduğu zərərin miqdarı müəyyənləşir, ölkə başımızın rəhbərliyi altında və göstərişləri ilə quruculuq işlərinə start verilmişdir. Bu gün ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının üzvləri Vətən müharibəsinin nəticələrinin aradan qaldırılması, qaçqın və köçkünlərimizin öz doğma yurd-yuvalarına qayıtmalarını təmin etmək məqsədilə azad olunmuş ərazilərdə aparılacaq abadlıq-quruculuq, yenidənbərpa işlərinə tam səfərbər olunmalıdırlar. Artıq rayonumuzun işğaldan azad edilən Talış kəndi və Suqovuşan yaşayış məntəqələrində infrastrukturun və lazımi bərpa işlərinin reallaşdırılmasına başlanılmışdır. Bu işdə yaxından və bilavasitə iştirak edən su, elektrik, yol təsərrüfatlarında çalışan işçilərin, eləcə də, bu müəssisələrdəki ərazi ilk partiya təşkilatlarının fəaliyyəti yüksək dəyərləndirilməlidir. Hesab edirəm ki, YAP Tərtər Rayon Təşkilatının bütün ərazi ilk partiya təşkilatları bu istiqamətdə görüləcək işlərdə öz fəaliyyətlərini daha da gücləndirəcəklər”.

R.Şabanov onu da vurğulayıb ki, ilk təşkilatlar eyni zamanda, ideoloji işin səmərəliliyinin artırılması, partiya üzvlük haqlarının toplanılaraq partiya büdcəsinə daxil edilməsi, partiyanın boy sırasının Heydər Əliyev ideyalarına, dövlətçiliyimizə sədaqətli insanlar, xüsusilə gənclər hesabına artırılmasını daim diqqətdə saxlamalıdırlar. Eyni zamanda, ölkəmizin uğurlarına kölgə salmaq istəyən şər qüvvələrə qarşı sosial şəbəkələrdə geniş cəbhə açmalıdırlar.

Video müşavirədə çıxış edən Şura üzvü Ədalət Məmmədov, Azər Ağayev, ərazi ilk partiya təşkilat sədrlərindən Çingiz İsayev, Xəyal Aslanov, Namiq Məmmədov, rayon təşkilatı aparatının rəhbəri Kamil Məmmədov, Gənclər Birliyinin fəal üzvü Murad Qafarov çıxış edərək, ölkəmizin və rayonumuzun ictimai-siyasi, sosial, mədəni və iqtisadi həyatında daha yaxından, daha məsuliyyətlə iştirak etməyin hər bir Azərbaycan vətəndaşı, birinci növbədə isə hakim partiya olan YAP üzvlərinin nümunə olmalarının vacibliyini qeyd ediblər.

***R. HÜSEYNOVA***

# YAP Xızı rayon təşkilatının növbəti hesabat yığıncağı keçirilib



***Dünən YAP Xızı rayon təşkilatının 2020-ci ildə görülən işlərlə bağlı hesabat yığıncağı keçirilib. Qed olunub ki, YAP Xızı rayon təşkilatının iş planında nəzərdə tutulan tədbirlərin vaxtında yerinə yetirilməsinin təmin edilməsinə təşkilatın aparatı tərəfindən hesabat dövründə ciddi nəzarət olunmuşdur. Əlavə olaraq cari işlərlə bağlı tədbirlər planında nəzərdə tutulmayan tədbirlər də həyata keçirilmişdir. Ərazilərdə gənclərlə və qadınlarla aparılan iş Yeni Azərbaycan Partiyası Xızı rayon təşkilatı Aparatının, Gənclər Birliyi və Qadınlar Şurasının daim diqqət mərkəzində saxlanılmışdır. İyun ayında rayon təşkilatının 2020-ci ilin birinci yarımillik, dekabr ayında isə illik statistik hesabatları tərtib edilmiş, statistik uçot dəqiqləşdirilmişdir. Statistik hesabata görə hazırda rayon təşkilatı 40 ərazi ilk partiya təşkilatı üzrə 1799 nəfər partiya üzvünü öz ətrafında birləşdirir ki, onların 857 nəfəri qadınlar, 798 nəfəri gənclərdir.***

Ümummilli Liderimiz, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev tərəfindən yaradılan Yeni Azərbaycan Partiyasının sıralarında birləşən hər bir xızılı partiya üzvü bu gün möhtərəm prezidentimiz, partiyamızın sədri İlham Əliyevin ətrafında sıx birləşərək harada işləmələrindən asılı olmayaraq ölkəmizdə, o cümlədən rayonumuzda aparılan irimiqyaslı abadlıq və quruculuq işlərinə öz töhfələrini verir və bundan sonra da verəcəklər.

2020-ci il Parlament seçkiləri ilə bağlı YAP Mərkəzi Aparatı tərəfindən təsdiq olunmuş tədbirlər planına uyğun olaraq bütün tədbirlər həyata keçirilmişdir. “Daha güclü Azərbaycan naminə” şüarı ilə təbliğat-təşviqat kompanıyasını uğurla həyata keçirərək Yeni Azərbaycan Partiyasının namizədi səs çoxluğu ilə Milli Məclisə üzv seçilmişdir

YAP Xızı rayon təşkilatı sosial şəbəkələrlə bağlı müvafiq tədbirlər həyata keçirərək qarşıya qoyulan vəzifələri yerinə yetirmişdir.

YAP Xızı rayon təşkilatının partiya fəallarının siyahısı tərtib olunaraq Mərkəzi Aparatın Bazasına göndərilmişdir və ərazi ilk partiya təşkilatlarının pasportlaşmasını həyata keçirmişdir.

YAP Xızı rayon təşkilatının Gənclər Birliyi 600-dən yuxarı bal toplayaraq ali məktəblərə daxil olmuş iki məzunun mükafatlandırılması ilə bağlı pandemiya qaydalarına uyğun görüş və Gənclər Birliyi “Heydər Əliyev və gənclik”, “Azərbaycan Gəncliyinin dünya gəncliyinə inteqrasiyası” mövzularında onlayn video-konfrans keçirmişdir. Həmçinin, partiyanın Gənclər Birliyi rayon Gənclər və İdman İdarəsi ilə birgə “Gənclər günü” ilə əlaqədar tədbir keçirmişlər. YAP Xızı rayon təşkilatı 20 yanvar faciəsinə və “Xocalı soyqırımı” ilə bağlı tədbirlər keçirilibdir.

YAP Xızı rayon təşkilatı pandemiya qaydalarına uyğun olaraq Ulu Öndərin anım günü ilə əlaqədar “Heydər Əliyev müasir müstəqil Azərbaycanın banisidir” mövzusunda onlayn video-konfrans formatında elmi-praktik konfrans keçirmişdir. Pandemiya qaydalarına uyğun olaraq Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci və Xızı rayon partiya təşkilatının yaranmasının 27-ci ildönümü ilə əlaqədar tədbirlər keçirmişdir. Pandemiya ilə bağlı rayonda keçirilən maarifləndirici tədbirlərdə fəal iştirak etmişdir. Həmçinin YAP Xızı rayon təşkilatı tərəfindən imkansız şəhid ailələrinə, əlillərə maddi yardım göstərilmişdir və təşkilatının maliyyə dəstəyi ilə 20 ailəyə gigiyenik vasitələr paylamışdır. YAP Xızı rayon təşkilatı “Koronavirusla mübarizəyə dəstək fonduna” iki yüz manat vəsait köçürmüşdür. YAP Xızı rayon təşkilatının rəhbərliyi və partiya fəalları şəhidlərin dəfn və yas mərasimlərində iştirak etmişlər. Yeni Azərbaycan Partiyası Xızı rayon təşkilatı 2021-ci ildə də üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

***R.KAMALQIZI***

# “30 ilin nisgilinə son qoyuldu”



**Müsahibimiz Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatının sədri Həmid Pənahovdur**

**-Həmid müəllim, milli qürurumuzu özünə qaytaran, torpaq həsrətinə son qoyan 44 günlük İkinci Qarabağ müharibəsi bir Azərbaycan vətəndaşı olaraq sizdə hansı hissləri yaratdı?**

-Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, bu, milli qürur məsələsi idi. 30 ilə yaxın idi ki, torpaqlarımızın tarixi sahiblərinə qayıtmasını gözləyir, möhtərəm Prezidentimizin uğurlu siyasəti nəticəsində tezliklə bu arzumuza, istəyimizə qovuşacağımıza əmin idik. Ermənilərin bu ərazilərdə törətdikləri vəhşiliklər, evləri, tarixi və dini abidələrimizi tamamilə yerləyeksan etmələri dünyaya açıq-aşkar bu reallığın təqdimatı idi ki, bu torpaqlar onlara məxsus deyil. Torpaq öz sahibinindir. Gec-tez o gün gələcək, ərazilərimiz tarixi sahiblərinə qayıdacaq və qayıtdı. Ölkə Prezidentimizin işğaldan azad edilmiş ərazilərimizə ardıcıl səfərləri və bu səfərlər zamanı müşahidə edilən bir məqamın dövlətimizin başçısı tərəfindən necə böyük qürurla, sevinc hissi ilə vurğulandığını qeyd etmək istərdim. O torpaqlarda havanın ani dəyişərək, günün çıxması sahibini gözlədiyini və bu gəlişdən sevinc hissi keçirdiyini təsdiqlədi. Bir Azərbaycan vətəndaşı olaraq Zəfərimizdən, işğaldan azad edilmiş torpaqlarımızda Azərbaycanın üçrəngli bayrağının dalğalanmasından qürur hissi keçirir, bizə bu sevinci yaşadan Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdarlığımı bildirirəm.

Bu gün qazaxlıların bir sevinci də artıq gündəlik eşitdikləri atəş səslərini unutmalarıdır. Artıq Dağlıq Qarabağ münaqişəsi ifadəsi tarixə qovuşub. Dövlətimizin başçısı İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan Ordusu Ermənistana elə bir dərs verib ki, tarix boyu onu unutmayacaq. İllərdir yaratdıqları “məğrur erməni ordusu” mifi tamamilə darmadağın edildi. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələri daim irəli getdi, cəbhədən davamlı qələbə xəbərləri gəldi. Ordumuzun gücü, qüdrəti qarşısında Ermənistan diz çökdü, kapitulyasiya aktına imza atdı.

Azərbaycan 30 ilə yaxın idi ki, tarixi həqiqətlərə, beynəlxalq hüquqa söykənərək sülh danışıqlarının səmərə verməsi üçün səylər göstərir, dünyaya haqqın, ədalətin kimin tərəfində olduğunu düzgün dəyərləndirməyə çağırışlar edirdi. Amma təəssüflər olsun ki, bu müddətdə işğalçı Ermənistana dəstək olan, onun təxribatlarına, qeyri-konstruktiv mövqeyinə, beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrinə məhəl qoymamasına göz yuman, bununla da münaqişənin həlli prosesinin uzanmasında Ermənistan qədər maraqlı olduqlarını təsdiqləyən dünyanın aparıcı dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar həqiqət anının gələcəyini unudurdular. Dövlətimizin başçısı İlham Əliyev daim ən yüksək tribunalardan xalqın səbrinin tükənməz olmadığını, bir qarış torpağımızı belə düşmənə verməyəcəyimizi bəyan edirdi. Azərbaycan hər bir sahədə gücləndi, faktlara əsaslanan təbliğatı nəticəsində münaqişənin həlli üçün möhkəm hüquqi bazanı formalaşdırdı. Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdən Azərbaycan ərazilərini atəşə tutması dövlətimizi, xalqımızın sıbır kasasını doldurdu, möhtərəm Prezidentimizin “İrəli, Azərbaycan əsgəri” əmrinə cavab olaraq bütün vətəndaşlarımız dəmir yumruq kim birləşdi. Tarix yazan Azərbaycan əsgəri və Ermənistana layiq olduğu yeri göstərdi. 44 gündə 5 şəhər, 5 qəsəbə, 300-dən artıq yaşayış məntəqəsini işğaldan azad edən Azərbaycan Ordusu dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində öz gücünü, qüdrətini, hansı imkanlara malik olduğunu dünyaya nümayiş etdirdi. Düşmənin illərdir qurduğu istehkamlar darmadağın, hərbi texnikası məhv edildi və ya qənimət kimi götürüldü. Silah-sursatlarını, hətta papaqlarını atıb qaçan Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun gücü qarşısında acizliklərini etiraf etdilər. Azərbaycanın Zəfəri dünyaya səs saldı. Bu səs münaqişənin hərb yolunun olmadığını bildirən dövlətlərə, eyni zamanda, erməni ordusu barədə “məğlubedilməz” mifi yaradan Ermənistan hakimiyyətinə Azərbaycan Ordusunun nəinki işğalçı dövləti, həmçinin dünyanı hansı reallıqlarla barışmaq məcburiyyətində qoyduğunu nümayiş etdirdi. Dövlətimizin başçısı İlham Əliyev tarixə 2020-ci ilin Müzəffər Sərkərdəsi, Azərbaycan xalqı ən məğrur, yenilməz xalq, Ordumuz dünyanın ən güclü Ordusu kimi tarixə yazıldı.

**-Ermənilərin döyüş meydanında məğlubiyyətləri ilə barışmayaraq insanlığa sığmayan əməllərini, dinc sakinləri raket atəşinə tutaraq terror aktlarını törətmələrini necə şərh edərdiniz?**

- 44 günlük İkinci Qarabağ müharibəsi dövründə törədilən terror aktları erməni vandalizminin növbəti təzahürü idi. Ermənilər belə terror aktlarını ilk dəfə törətməyib. Tarix bu vəhşiliklərin bələdçisidir. 44 gün davam edən Vətən müharibəsində 100-ə yaxın mülki şəxs həlak olub, 400-dən artıq günahsız insan yaralanıb. Nə qədər dağıntılar baş verib. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kmi, hər bir müharibə qəddarlıq, qurbanlar, insanların iztirabları, yaxın adamların itirilməsi deməkdir. Fərq ondadır ki, Azərbaycan xalqı üçün bu müharibə azadlıq, Ermənistan üçün isə işğalçılıq müharibəsi idi.

Ermənistan döyüş meydanında məğlubiyyətini həzm edə bilməyərək mülki əhalini atəşə tutub hərbi cinayətlər törədir, dünya bunu görüb yenə də susursa, artıq geniş şərhə ehtiyac yoxdur. Ermənistan müharibə dövründə üç dəfə humanitar razılaşmanı kobud şəkildə pozdu. İki dəfə Gəncə, sonra Bərdə raket atəşinə tutuldu. Günahsız insanların qisası döyüş meydanında alındı. Amma Ermənistandan fərqli olaraq Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələri ilə döyüşdü, mülki şəxslərə heç zaman atəş açmadı. Dünya bu fərqi görməzdən gəlməyə bilməz. Eyni zamanda, Azərbaycan Ordusu başqa dövlətin deyil, öz torpaqlarında döyüşdü. Möhtərəm Prezidentimiz İlham Əliyev 44 günlük müharibə dövründə xarici mətbuata verdiyi 30-a yaxın müsahibəsində, həmçinin xalqa müraciətlərində daim bildirirdi ki, mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir, Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?!

Azərbaycan öz humanistliyini 10 noyabr razılaşması əsasında Kəlbəcərin boşaldılması ilə bağlı vaxtın noyabrın 15-dən 25-dək uzadılmasında da nümayiş etdirdi. Ermənistan Rusiya Prezidentinin vasitəsilə Azərbaycandan əlavə vaxt istədi. Dünya ermənilərin azərbaycanlıları Kəlbəcərdən necə çıxardıqlarını xatırlasın, bununla paralel Azərbaycanın göstərdiyi humanistliyə diqqət yetirsin, onda bu müddət ərzində hansı xaini, cinayətkar dövləti müdafiə etdiyinin fərqində olar. Azərbaycan ermənilərə Kəlbəcəri boşaltmaları üçün əlavə vaxt verir, onlar bunun qarşılığında xislətlərinə uyğun olaraq vəhşiliklərini davam etdirərək evləri, meşələri yandırır, ekoloji terror aktları törədib tərk edirlər. Budur, erməni barbarlığının növbəti təzahürü. Dünya bunlara göz yumub erməniləri nə qədər “mədəni millət, xalq” kimi qəbul etməyə şalışsa da, bunun mümkünsüzlüyü göz önündədir. Çünki 44 günlük Vətən müharibəsi əsl həqiqət anı oldu.

**-Həmid müəllim, artıq ölkəmizin həyatında yeni dövr başlayıb- quruculuq, bərpa dövrü. Prioritetlərə nəzər salmağınızı istərdik...**

- Bu günümüzün mənzərəsi budur ki, Azərbaycan yeni reallıqlar yaradıb, bölgədə yeni əməkdaşlıq formatlarının təməli qoyulur. İşğaldan azad edilmiş torpaqlarımızın, dövlətimizin başçısı İlham Əliyev tərəfindənAzərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşamızın cənnət məkana çevrilməsi əsas prioritetlərdəndir. Bunun üçün həmin ərazilərdə yeni idarəçilik sisteminin yaradılması istiqamətində addımlar atılır. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı əsasında işğaldan azad edilmiş rayonlarda Prezidentin xüsusi nümayəndələri institutu formalaşır. İlk addım Qarabağın ürəyi olan Şuşamızda atıldı. Möhtərəm Prezidentimiz bu günlərdə Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul etdi və hədəfləri diqqətə çatdırdı. Cənab İlham Əliyev, həmçinin fevralın 1-də Azərbaycan Televiziyasına müsahibəsində prioritetlərlə yanaşı, hər bir dövlət məmurunun qarşısında dayanan vəzifələri bir daha onların diqqətinə çatdırdı. Bütün işlərin planlı şəkildə həyata keçiriləcəyini bildirən dövlətimizin başçısı İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə insanlara dünyaya nümunə olacaq şəraitin yaradılacağını diqqətə çatdırdı. Möhtərəm Prezidentimizin “Heç bir qanunsuz hərəkət ola bilməz. Heç bir torpaq zəbt oluna bilməz. Hər şey planlı və əsaslı şəkildə olmalıdır. Mən əminəm ki, biz buna nail olacağıq. Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin” çağırışı hər kəsin qarşısında üzərinə düşən vəzifəni layiqincə yerinə yetirmək tələbini qoyur. 44 günlük müharibə dövründə nümayiş etdirdiyimiz, birliyimizin, həmrəyliyimizin rəmzi olan dəmir yumruğumuz işğaldan azad edilmiş torpaqlarımızda quruculuq və bərpa işlərinin tez bir zamanda başa çatdırmağımızı stimullaşdıracaq. Soydaşlarımız Böyük Qayıdışı səbirsizliklə gözləyir. Tezliklə həmin ərazilərimiz bərpa ediləcək, soydaşlarımız dogma yurd-yuvalarına qayıdacaq, həyat daha da canlanacaq, ölkəmizin dayanıqlı inkişafını təmin etmək üçün geniş imkanlar yaranacaq.

**RƏFİQƏ KAMALQIZI**

# YAP Kəlbəcər rayon təşkilatının hesabat yığıncağı keçirilib

Dünən YAP Kəlbəcər rayon təşkilatının 2020-ci il ərzində görülən işlərin yekunlarına həsr olunan hesabat yığıncağı keçirilib.

Yığıncaqda qeyd olunub ki, Yeni Azərbaycan Partiyası Ümummilli Liderimiz, dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevin sayəsində təşəkkül tapmış onun nurlu şəxsiyyəti ətrafında sıx birləşərək möhkəmlənmiş və respublikamızın siyasi həyatında indiki mövqeyini tutmuşdur. Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyasının cəmiyyətdə alternativsiz siyasi qüvvə kimi qəbul olunması onun ötən illərdə hər bir fərdin arzu və istəklərinin təminatçısına çevrilməsi ilə şərtlənir. Çünki Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə almış Yeni Azərbaycan Partiyası ötən müddət ərzində milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin təminatçısı qismində çıxış etmişdir. Və bu gün ən maraqlı məqam odur ki, Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi Azərbaycanın müstəqillik dövrünün tarixi ilə, demək olar ki, üst-üstə düşür. Və bu tarixin ardınca isə İkinci Qarabağ müharibəsinin şanlı qələbə tarixidir. Bu böyük qələbəni bizə Müzəffər Ali Baş Komandanımızın misilsiz cəsarəti və rəşadəti Ordumuz nəsib etdi. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Prezident İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırdı.



Hesabat yığıncağında bildirildi ki, Gəncə şəhəri ADAU-6 saylı yataqxananın binasında yerləşən YAP Kəlbəcər rayon təşkilatı 19 ərazi ilk təşkilatından ibarət olmaqla 4255 nəfər YAP üzvünü özündə birləşdirir. Onlardan 1724 qadın, 1875 nəfəri isə gənclərdir. İl ərzində 19 nəfər ərizə ilə müraciət etmişdir. Partiya sıralarına daxil olan üzvlərin mütləq əksəriyyəti sağlam düşüncəli, vətənpərvər, yüksək intellektə və biliyə sahib olan gənclərdir. Keçən dövr ərzində YAP rayon təşkilatı ölkəmizdə baş vermiş ictimai-siyasi proseslərin gedişimdə yaxından iştirak etmişdir. 09 fevral 2020-ci il tarixdə VI çağırış parlament seçkiləri keçirilmişdir. İmza toplama kompaniyası uğurla həyata keçirilmişdir. Namizədin seçicilərlə görüş qrafiki tərtib olunmuş, seçicilərlə 37 görüş keçirilmişdir. Seçicilərimizin pərakəndə məskunlaşmasını nəzərə alsaq, ümumi seçici sayının 40%-zi əhatə olunmuşdur. Görüşlər haqqında məlumat və fotolar arayışa əlavə olunur. Təşkilatımız tərəfindən seçki kompaniyası uğurla həyata keçirilmiş və bunun nəticəsi olaraq Yeni Azərbaycan Partiyasının namizədi Aqil Məmmədov Sadıq oğlu 70 faiz səs çoxluğu ilə Milli Məclisin deputatı seçilmişdir.

Hesabat yığıncağında, həmçinin, bütün dünyanı COVID-19 pandemiyası cənginə aldığı bir dövrdə rayon təşkilatı “Sağlamlığımız həmrəyliyimizdir” devizini əsas tutaraq pandemiyaya qarşı mübarizəyə qoşulmuşdur. YAP rayon təşkilatının könüllüləri və gəncləri qocalara, ahıllara, tənhalara evlərində baş çəkmiş, onlara gigiyenik vasitələr (spirt, maska, əlcək və.s) və ərzaq yardımı etmişlər.YAP rayon təşkilatının aparat işçiləri bir aylıq əmək haqqlarını korono virusla mübarizə fonduna ianə etmişlər.Virusun hökm sürdüyü bu bir ilə yaxın müddətdə təşkilat öz işlərini karantin qaydalarına riayət edərək davam etdirmişdir.Bütün tədbirlər (konfranslar, müşavirələr, dəyirmi masalar) onlayın formatda keçirilmiş, ilk təşkilatlarla müntəzəm olaraq əlaqə saxlanılmışdır.

Yığıncaqda 2020-ci il bütün dünya ölkələri o, cümlədən Azərbaycan üçün də ağır il kimi yadda qalacağı bildirilib. Bu çətinliklərə baxmayaraq ölkəmiz 30 ilə yaxın mənfur qonşularımızın işğalda saxladığı Qarabağ və ətraf rayonları azad edərək “Zəfər qələbəsini” qeyd etdi. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə Müzəffər Ordumuz düşmənin növbəti təxirbatına cavab olaraq əks hücuma keçdi. Torpaqlarımızın əsas hissəsini döyüş meydanında azad etdi. 10 noyabr 2020-ci il tarixdə isə Ermənistanı kapitulyasiya aktına imza atmağa məcbur etdi. Bu isə ermənistanın biabırçı məğlubiyyəti demək idi. Müharibə zamanı təşkilatımız vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin dəfn mərasimlərində yaxından iştirak etmiş, onların ailə üzvləri ilə görüşmüş müəyyən maddi köməklik göstərmişdir.

Hesabat yığıncağında bildirilib ki, 2020-ci il ərzində 4 Şura və 12 İdarə heyətinin yığıncağı keçirilib. Yeni Azərbaycan Partiyası Kəlbəcər rayon təşkilatının bütün üzvləri Ali Baş Komandan, Partiyanın Sədri cənab İlham Əliyevin ətrafında sıx birləşərək respublikamızın qüdrətlənməsinə və çiçəklənməsi istiqamətində aparılan uğurlu işlərdə öz töhfələrini verəcəklər.

**R.HÜSEYNOVA**

# Əli Kərimli ruhi xəstəni "şəhid anası" kimi təqdim etdi və...









### AXCP sədrinin daha bir qeyri-insani davranışı ifşa olundu!

AXCP sədri Əli Kərimlinin istər dövlət maraqları, istərsə də bütövlükdə milli, əxlaqi dəyərləri heçə sayması faktları kifayət qədərdir və demək olar ki, onun siyasətbazlıqla məşğul olduğu hər gün bir ifşa faktı ortaya çıxmaqdadır. Əslində, Vətən müharibəsi başlayan andan yaxasını kənara çəkən, övladını hərbi xidmətə yollamayan bir ünsürdən başqa hər hansı bir dəyəri gözləmək də sadəlövhlük olardı. Amma bu dəfə üzə çıxan fakt həqiqətən də ürəkbulandırıcılığı, eləcə də qeyri-insani rəftarlıq baxımından ictimai rəydə hiddət doğurmaya bilməz.

Beləliklə, bəlli olub ki, məhz Əli Kərimlinin sosial şəbəkələrdəki trolları onun sifarişi ilə guya Vətən müharibəsində iki övladı itkin düşmüş bir ananın "ağrılı-acılı" həyatını əks etdirən "reportaj" hazırlayıblar.

Vicdan əzabı çəkmək üçün normal insanda gerçək vicdan olmalıdır, belələrində isə nəinki vicdan, heç adi insani dəyərlər də, ümumiyyətlə, mövcud deyil!

Ancaq həmin "reportajdan" cəmi bir neçə saat keçəndən sonra məlum olub ki, Rəna Kazımova adlı həmin qadın ruhi xəstəliyə sahibdir və sən demə, onun ümumiyyətlə, övladları yoxdur! Beləliklə də məlum olur ki, saxtakar Əli Kərimli artıq get-gedə heç bir nüfuzunun olmadığını anlamağa başlayıb və belə bir ucuz şoular düzüb-qoşdurmaqla siyasi arenada qalmağa cəhd edir. Əslində isə, sözügedən əməlƏ həm də mənəvi terror adını da vermək doğru olardı. Çünki bilavasitə milli-mənəvi, həm də ailə dəyərlərinə aid olan ana məfhumu üzərində, özü də "övladlarını itirmiş ana!" yalanı üzərində oyun oynamağa başqa cür ad da vermək olmaz.

İndi bu faktdan sonra normal düşüncəyə sahib insanlarda belə bir sual yaranmağa başlayır ki, əcəba, ruhi xəstəliyə düçar olmuş bir qadının, xanımın acınacaqlı vəziyyətindən istifadə edərək, feyklər üzərinə xal toplamağa səy göstərən Əli Kərimli, onun Avropadakı sözbazları - Qənimət Zahid, AXCP-nin baş hapgopçuları - Nicat Abdullazadə, İlham Hüseyn, Emil Səlim kimi trolları heç olmasa indi özlərinin daxillərində vicdan əzabı çəkirlərmi? Buna inanmaq çətindir, çünki vicdan əzabı çəkmək üçün normal insanda gerçək vicdan olmalıdır, belələrində isə nəinki vicdan, heç adi insani dəyərlər də, ümumiyyətlə, mövcud deyil!

Fəqət daha bir amil budur ki, Əli Kərimli və onun ətrafındakı qeyri-insanlar nəinki xəstə insanları öz qaranlıq niyyətlərinə görə istifadə edirlə, həm də bütünlüklə həmin əməlləri ilə şəhid və qazi ailələrinin heysiyyatlarına mənəvi zərbələr vururlar. Bir sözlə, onlar üçün müqəddəs heç nə yoxdur, yoxdursa, demək ki, onlar həqqətən də, insan cildinə girmiş və cəmiyyətə bəlli olmayan əcaib-qəraib məxluqlardırlar.

**Bu gün bir sıra sosial şəbəkələrdə və mediada Vətən müharibəsində iki oğlunun itkin düşdüyü deyilən ana ilə bağlı reportaj yayımlanıb. Reportajda Rəna Kazımova adlı qadın oğlanları Valid və Azər Kazımovun müharibədə itkin düşdüyünü və bu günə kimi onlardan xəbər ala bilmədiyini vurğulayıb. Maraqlısı budur ki, Müdafiə Nazirliyinin açıqladığı itkin siyahısında Valid və Azər Kazımov qardaşlarının adı yoxdur.**

Bu səbəbdən də "Qafqazinfo" məsələni araşdırıb. Məlum olub ki, R. Kazımovanın ümumiyyətlə övladı yoxdur. O, əslən Lənkəranın Osakücə kəndindəndir. 1 il yarımdır ki, Suraxanı rayonu Hövsan qəsəbəsində kirayədə yaşayır. Suraxanı Rayon Səfərbərlik Xidməti də sözügedən adda olan şəxsləri xidmətə çağırmayıb.

**Lənkəran rayonu Osakücə kəndinin bələdiyyə sədri Hakət Cavadova** da "Qafqazinfo"ya bildirib ki, Rəna Kazımovanın ruhi problemləri var. Onun hərbi xidmətə gedəcək yaşda övladı yoxdur: "Mən elə indi onun qardaşı ilə danışdım. Məlum oldu ki, həmin qadının dediyi Valid onun özünün yox, qardaşının oğludur. Özü də illər əvvəl Rusiyaya gedib və orada yaşayır. Onun ümumiyyətlə, övladının olması ilə bağlı məlumat yoxdur".

H. Cavadova bildirib ki, qardaşının dediyinə görə, bacısı bir neçə il əvvəl doğulduğu kəndə gəlib və yanında Azər adında azyaşlı oğlan olub. Lakin bu uşağın onun özünün oğlu olub-olmadığı da bilinmir: "Qardaşının dediyinə görə, bacısının psixoloji problemləri var. Bir dəfə 2015-ci ildə kəndə gəlib və yanında 7-ci sinifdə oxuyan Azər adında uşaq olub. Onun sənədlərini hazırlayıblar və müalicə etdiriblər. Lakin uşağın onun oğlu olub-olmadığı, hazırda söhbətin həmin Azərdən getdiyi də bilinmir. Amma o dəqiqdir ki, onun Valid adında oğlu yoxdur".

**Rövşən RƏSULOV**



## Acgöz məmur - Bu düşüncə ilə heç vaxt düzələn deyilsiniz...

**RƏFİQƏ**

***Əslində bu gerçəklik həm də aksiomadır. Yəni dəfələrlə rüşvətxor məmurlar barədə deyilib, yazılıb. Ancaq bu gənələr qana elə daraşıblar ki... Amma artıq onlara sığal çəkmək kimi cinayətə bərabər "humanistliyə" yer yoxdur, bu cəmiyyətdə. Dövlətin və xalqın pulunu yeyənlərə "bacarana can qurban" düşüncəsi ilə yanaşmaq, elə onların cinayətlərinə şərik olmaq kimi bir şeydir. Ancaq bu düşüncə ilə heç vaxt bələləri düzələn deyil.***

Belə acgöz məmurlar anlamırlar ki, 30 il işğalçı Ermənistanın özgə torpağına göz dikdikləri üçün başlarına elə bir dəmir yumruq vuruldu ki, başlarını soxmağa heç bir siçan deşiyi belə tapa bilmədilər.

Bu dəmir yusruğun gücü idi!. Bu Prezident, Ali Baş Komandan İlham Əliyev cənablarının "dəmir yumruq" siyasətinin nəticəsi idi ki, 44 gün ərzində 30 illik həsrətə son qoyularaq, haqq qalib gəldi, haqqını azanları icid əsgərlərimiz və zabitlərimiz şücaəti ilə it kimi qovaraq bütövlüyümüz bərpa edildi, Qarabağ Azərbaycanımıza qovuşduq. Nə əcabə, bu gün bəzi, dövlət başçımızın adlarını çəkdiyi və çəkmədiyi məmurlar "hazırın naziri olmaq" istəyirlər?. Amma istəkləri ürəklərində qaldı. Dövlət başçımız bu tip məmurlara elə bir dərs verdi ki... İyrənc simalarını ictimaiyyət qarşısında açıqlamalı oldu. Üstəlik, ölkə ictimaiyyətini mədəniyyət paytaxtı elan edilmiş gözəl Şuşanı bu tipli qəsbkar məmurlara "öz yerlərini bilsinlər" deyərək bildiridi ki, bu özbaşınalığı nə birincidir, nə də sonuncu: "Biri filial açmaq istəyir, biri nə bilim başqa qurum açmaq istəyir. Bu, yolverilməzdir və qəbuledilməzdir...Yenə də deyirəm, ucuz populyarlıq dalınca qaçanların axırı pis olur, bu, birincisi. İkincisi, qayda-qanun var ölkədə. Heç kim özbaşınalıq edə bilməz. Əgər kimsə unudur, biz onun yadına salarıq".

Bəli, ölkənin Lideri yadına saldı. Yadına saldı ki, "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm!". Amma görünür hələ də bu özbaşına məmurlar isti yerdə oturduqlarını zənn edirlər. Kifayət qədər iyrəncdir. Tamah gör nə sərhədsiz həddə çatıb ki, yenicə işğaldan azad edilən, hələ minalarla və demək ki, hər an ölüm risqi ilə dolu olan bu torpaqlara sahiblənmək, onları da Azərbaycanın digər səfalı ərazilərini zəbt etdikləri kimi əhatəyə alıb özününküləşdirmək üçün ən rəzil yollara belə əl atırlar.

Ay nankor və acgözlər, bu torpaqlar qanla alınanda sən, övladların o "hazırın, naziri olmaq" istədiyiniz torpaqların azad olunmasında nə etmisiniz? Hanı vicdan?. Hanı əxlaq? Hanı qeyrət? Kimlərə bunu sual edirəm. Ancaq etməliyəm. Çünki qanları bahasına oğullarımızın - əsgər və zabtlərimizin qanı hesabına azad edilən torpaqlarda öz istirahətləri üçün qəsrlər tikmək, yay aylarında kef məclisləri qurmaq üçün Şuşaya diş qıcıyanlıra ən ağır sözlər deməliyəm. Çünki bunların mədələri ilə küt beyinləri arasındakı rabitə elə pozulub ki, "dur" siqnalı qəbul olunmur. Artıq insanlıqdan vəhşiliyi doğru getdiklərini də hiss etmirlər. Mən bu adamlarda günah görmürəm. Çünki robotlaşıblar. Və bu acgöz məmurlar dövlət başçımızın dediyi kimi: "Heç kim özbaşınalıq edə bilməz. Əgər kimsə unudur, biz onun yadına salarıq". Məmurlar öz yerlərini bilsinlər, öz işləri ilə məşğul olsunlar".

***Qarabağın azad olunmasından sonra qarşıda həmin bölgənin bərpası, yenidənqurulması, sosial-iqtisadi infrastruktur, o cümlədən kommunal sistemlərin yaradılması kimi böyük və çətin vəzifələr durur. Lakin bütün bunların başlanması üçün, ilk növbədə, daha ağır bir problem həll edilməlidir. Bu da ərazinin minalardan təmizlənməsidir. Bu işi başa çatdırmadan digərlərinin yerinə yetirilməsi mümkün deyil. Ərazi böyük olduğundan, relyefi mürəkkəb olduğundan, minalanmış sahələrin xəritəsi olmadığından, bu, bir ölkənin qısa müddətə öhdəsindən gələcəyi bir iş deyil. Ona görə də, digər ölkələrin yardımından da istifadə edilməlidir ki, Azərbaycan elə belə də edir. Mina təmizlənmə işlərində, Rusiya, Britaniya, Türkiyə, İran və digər ölkələrin həm texnika ilə, həm də mütəxəssis köməyindən istifadə olunur və olunması nəzərdə tutulur.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# Qarabağın bərpası nədən başlayıb, necə bitəcək?



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edib ki, azad edilmiş torpaqların minalardan təmizlənməsi işi birinci dərəcəli vəzifədir: “Bu işlər elə aparılmalıdır ki, işlər başa çatandan sonra hər hansı bir bədbəxt hadisə baş verməsin. Azad edilmiş torpaqlarda son günlərdə və müharibədən sonra əfsuslar olsun ki, bədbəxt hadisələr baş verir. Mən Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, onlardan xahiş edirəm ki, azad olunmuş torpaqlara icazəsiz, qanunsuz getməsinlər. Mən insanların bu addımlarını bir tərəfdən başa düşürəm, onlar uzun illər vətən həsrəti ilə yaşamışlar, hər bir keçmiş məcburi köçkün tezliklə öz doğma torpağına, doğma kəndinə qayıtmaq istəyir, ancaq xahiş edirəm ki, gözləsinlər. Bir qədər gözləsinlər ki, minalardan təmizləmə işləri başa çatsın. Çünki bu, böyük təhlükədir, həm piyadalara, həm avtomobillərə böyük təhlükədir. Müharibədən sonra bir neçə belə bədbəxt hadisə baş verib, insanlar həlak olub, yaralanıb. Eyni zamanda, postlarda dayanan əməkdaşlar da nəzarət işlərini daha ciddi təşkil etməlidirlər ki, azad edilmiş torpaqlara qanunsuz, icazəsiz gedişə son qoyulsun.

Bu bədbəxt hadisələr bir daha onu göstərir ki, mənfur düşmən işğaldan sonra nəinki bütün binalarımızı, bütün tarixi abidələrimizi dağıdıb, eyni zamanda, hər tərəfi minalayıb. Təkcə təmas xəttinə yaxın olan əraziləri yox, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri minalayıb və bizdə mina sahələrinin xəritələri yoxdur. Ona görə, bizim istehkamçıların üzərinə çox böyük vəzifə düşür. Onlar bu vəzifəni elə icra etməlidirlər ki, azad olunmuş torpaqları tamamilə minalardan təmizləyə bilsinlər.

Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə, biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın”.

Göründüyü kimi, dövlət başçısı ilk növbədə, insanların təhlükəsizliyini düşünür. Köçkünlər bir qədər də gec qayıda bilər, amma heç kim minaya düşüb həlak olmalı deyil: “Mən ardıcıllıqla bağlı öz fikirlərimi dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, birinci dərəcəli vəzifə minalardan təmizləmə işləridir. Sonra ziyanın qiymətləndirilməsi, ondan sonra artıq bərpa işləri aparılacaqdır. Biz keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytarmalıyıq. Ancaq hər kəs bilməlidir ki, birinci dərəcəli məsələ minalardan təmizləmədir.

Ölkə prezidenti bunun üçün bütün imkanlardan istifadə ediləcəyini, ən müasir texnologiyalardan tətbiq ediləcəyini bəyan edib: “Yeni texnikanın alınması, əlbəttə ki, növbədə duran əsas vəzifələrdən biridir. Son illərdə bu sahədə texnoloji inkişaf özünü qabarıq şəkildə büruzə verir. İndi elə maşınlar, mexanizmlər, texnika var ki, işi həm sürətləndirir, həm də keyfiyyətlə aparmağa imkan verir. Ona görə, baxın, dünyanın aparıcı istehsalçıları olan şirkətlərin ən müasir texnikası ölkəmizə gətirilməlidir. Çünki işin keyfiyyəti və sürəti bundan asılı olacaq. Bizim keçmiş köçkünlərimiz 30 il vətən həsrəti ilə yaşayıblar. Azad edilmiş torpaqlarda minalardan başqa, partlamamış sursatlar da kifayət qədər çoxdur, bu da təbiidir. Çünki müharibə dövründə gedən döyüşlər təbii ki, azad edilmiş torpaqlarda partlamamış sursatların çoxluğuna səbəb olmuşdur. Ona görə minatəmizləmə işləri elə aparılmalıdır ki, biz qısa müddət ərzində bərpa işlərinə start verə bilək və beləliklə, vətəndaşlar inşaat işləri başa çatandan sonra öz torpaqlarına qayıda bilsinlər”.

İlham Əliyev əvvəlcə dağıntıların miqyasının və zərərin məbləğinin ölçüləcəyini, daha sonra Qarabağdakı yaşayış məntəqələrinin, sosial və kommunal infrastrukturun bərpa edilməsi işlərinin də ciddi planlaşdırma üzrə aparılacağını deyir: “Dəyən ziyanın qiymətləndirilməsi, infrastruktur layihələrinin icrası, evlərin tikilməsi, iş yerlərinin yaradılması-əgər bu işlər görülməsə, insanlar gedib o torpaqlarda necə yaşaya bilərlər? Gərək ev-eşiyi, şəraiti, suyu, elektriki, yolu, məktəbi, xəstəxanası olsun. Bu, böyük, genişmiqyaslı bir işdir. Mənfur düşmən işğal edilmiş və azad olunmuş torpaqlarda hər şeyi dağıdıb. Hətta son günlərə qədər yaşadıqları evləri də çıxarkən məhv edib, yandırıb, ağacları qırıb, xüsusilə Kəlbəcər və Laçın rayonlarında. Ağacların bir hissəsini yük maşınlarına doldurub Ermənistana satmağa aparıb. Qalan ağacları, sadəcə olaraq, qırıb ki, bizə qalmasın. Özləri tikmədikləri, - azərbaycanlıların yaşadıqları evləri ki, onları zəbt etmişdilər, - yandırıblar, dam örtüklərini, pəncərə çərçivələrini, sanitar qovşaqlarını çıxarıb aparıblar. Bu biabırçı kadrlar xarici mediada da kifayət qədər işıqlandırılmışdır. Görün, onlar nələri özləri ilə aparırlar?! Sanitar qovşaqlarını. Mənfur xuntanın özünə ofis yaratdığı Şuşa şəhərinin keçmiş raykom binasında kondisionerləri, radiatorları bu qaçaqaçda çıxarıblar. Çünki biz bilirdik ki, onlar oradan necə qaçırdılar. Bəlkə də qaçışda rekord nəticələr göstərmişlər. Amma bu qaçaqaçda da bellərinə yəqin ki, radiator, kondisioner bağlayıb Ermənistana qaçırdılar. Yəni, bizim bütün infrastrukturumuz, binalar yerlə-yeksan edilib.

...Biz, ilk növbədə, şəhərləri bərpa etməliyik. Ona görə, bütün şəhərlərin əraziləri birinci növbədə minalardan təmizlənməlidir. Bununla paralel olaraq, yaxın gələcəkdə bəzi kəndlərdə bərpa işlərinə start veriləcək və mən artıq bunu bildirmişəm. Biz indi “ağıllı kənd” konsepsiyasını da hazırlayırıq. Bu konsepsiya demək olar ki, hazırdır, mənə məruzə edildi, mən bunu təsdiqlədim. “Ağıllı kənd” birinci pilot layihəsi icra ediləcəkdir. Məhz o yerlər də düzgün təsbit edilməlidir. Əkin sahələri və əkin sahələrinə gedən yollar təmizlənməlidir. Bu da prioritetlər sırasındadır. Çünki mənfur düşmən bizim torpağımızı da vəhşicəsinə istismar edib. Azad olunmuş torpaqlarda təkcə taxıl altında 90 min hektar sahədən mənfur düşmən qanunsuz istifadə edib və qanunsuz varlanıb. Vaxt itirməmək üçün mənim göstərişimlə bütün güclər artıq səfərbər edilib və müharibə başa çatandan sonra mən dərhal bu işlərə start verdim. Deyə bilərəm ki, payızlıq əkin də aparılmışdır. Baxın, müharibə noyabrın 10-da dayandı və biz dekabr ayından payız əkininə başlamışıq. Mənə gündəlik məlumat verilir, 7 min hektarda artıq payız əkini aparılıb. Yəni, bu, yenə də bizim gücümüzü göstərir. Onu göstərir ki, biz bir dəqiqə də, bir gün də gözləmək istəmirik. Biz bu torpaqlara qayıtmaq istəyirik və keçmiş köçkünlər, əlbəttə ki, bu arzularla 30 il yaşayıblar. Onların hisslərini başa düşmək olar. Amma, eyni zamanda, onların və onlarla birlikdə olanların təhlükəsizliyi birinci dərəcəli məsələdir. Bu yaxınlarda üç nəfər minaya düşüb, bir nəfər həlak olub. Yəni, o işin təşəbbüskarı var. Təşəbbüsü irəli sürən adam özü də xəsarət alıb, yanında olanlar da. Ona görə, bu, çox ciddi məsuliyyətdir. Ona görə, indi yazlıq əkin üçün sahələrin müəyyənləşdirilməsi prosesi də gedir, torpaqlar müəyyən edilib və o əkin sahələrinə gedən yollar da mütləq prioritetlər sırasında olmalıdır”.

Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə həm sürətli təmizləmə, həm yaşayış evlərinin tikilməsi, həm infrastrukturu, həm iqtisadi potensialı bərpa etmək üçün aydın strateji proqrama malikdir. Və bütün bu işlər plana uyğun şəkildə, sistemli şəkildə aparılacaq. Şübhə yoxdur ki, yaxın bir neçə il ərazində Qarabağ bölgəsi tam bərpa olunacaq, köçkünlər yurdlarına qayıdacaq və bölgənin sosial-iqtisadi inkişafı sürətlənəcək.

***Altay***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

Son səhifə

6 fevral

# Avropa kubokunda Azərbaycanın 16 cüdoçusu iştirak edəcək



Praqada keçiriləcək cüdo üzrə açıq Avropa kubokunda Azərbaycanın 16 cüdoçusunun iştirakı planlaşdırılıb. Belə ki, yüngül çəki dərəcəsində komandamızı Turan Bayramov, Rəşad Baxşəliyev (60 kq), Yaşar Nəcəfov, Vaqif Tarverdiyev (66 kq) təmsil edəcəklər. Orta və ağır çəki dərəcələrində isə cüdoçularımız Rəşid Məmmədəliyev, Nurlan Osmanov, Kənan Quluzadə (73 kq), Vüqar Talıbov, Araş Ağayi, Elcan Hacıyev (81 kq), İbrahim Ağakişiyev (90 kq), Aslan Mirzəyev, Adil Kərimli, Abdulla İsmayılov (100 kq), İmran Yusifov, Hüseyn Məmmədov (+100 kq) mübarizə aparacaqlar. Yarış fevralın 27-28-də təşkil ediləcək.

# Məhəmməd Salah Afrikada son on ilin ən yaxşı futbolçusu seçilib

***Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) Afrikada son on ilin ən yaxşı futbolçularının adlarını açıqlayıb.***

Bu barədə IFFHS-in saytında məlumat yer alıb. Məlumatda deyilir ki, İngiltərənin "Liverpul" klubunun və Misir millisinin futbolçusu Məhəmməd Salah birinci yerə layiq görülüb. Onun sənəqallı komanda yoldaşı Sadio Mane ikinci, "Mançester Siti"də çıxış edən Əlcəzair yığmasının üzvü Riyad Mahrez isə üçüncü olublar. M.Salah Misir millisinin heyətində keçirdiyi 68 oyunda 43 qol vurub.




# "Mançester Yunayted"dən ayrıldı, Ərəbistan klubuna keçdi



Son olaraq "Mançester Yunayted"də çıxış edən Odion İqalonun yeni klubu bilinib. Qol.az xəbər verir ki, nigeriyalı hücumçu karyerasını Səudiyyə Ərəbistanında davam etdirəcək. O, "Əl Şabab" klubuna keçib. Bu barədə Ər-Riyad təmsilçisinin mətbuat xidməti məlumat yayıb. İqalo ilə 2,5 illik müqavilə imzalanıb.

Qeyd edək ki, İqalo ötən ilin yanvarında Çinin "Şanxay Şenxua" klubundan icarə əsasında "Mançester Yunayted"ə keçmişdi. O, İngiltərə təmsilçisində 23 oyunda 5 qol vurub, 1 qolun ötürməsini verib.

# İnfeksiyalarla mübarizədə D vitamininin əhəmiyyəti böyükdür



***İmmunitet sisteminin möhkəmlənməsində D vitaminin çox böyük rolu var. Günəşin ultrabənövşəyi şüalarından alınan həmin vitaminə qış aylarında daha çox ehtiyac duyulur.***

Orqanizmdə D vitamini çatışmazlığı sızanaqlar, aritmiyalar, yüksək qan təzyiqi və göz yaşının axması ilə özünü büruzə verir. Eyni zamanda D vitamini çatışmazlığı həm də özünü yorğunluq, əzələ zəifliyi, bağırsaqda qıcıqlanma və şişkinliklə də göstərir. Həmin vitamin kalsium və fosfor mübadiləsi başqa olmaqla bir çox proseslərdə iştirak edir. Nevropatiya, immun çatışmazlığı xəstəliklərinin şiddətlənməsi, yuxu zamanı tənəffüsün dayanması və orqanizmdə allergiya olduğu hallarda D vitamininin səviyyəsini yoxlamaq lazımdır.

Həkim-terapevt Mətanət Cəfərova AZƏRTAC-a deyib: "İstər COVID, istərsə də digər viruslara qarşı mübarizədə D vitaminin çox böyük rolu var. Qanda D vitamini yüksək olanlarda həmin viruslara yoluxma riski çox az olur və yaxud yoluxma zamanı xəstəliyi yüngül formada keçir. D vitamini çatışmazlığı dəri quruluğu, saç tökülməsi, həddsiz tərləmə, tez yorulma, əzələ, oynaq sümük və barmaqlarda ağrı özünü göstərir".

Amerikalı alimlər araşdırma zamanı COVID-19-dan müalicə olunan 100 xəstənin qanındakı Omeqa-3 səviyyəsini müayinə ediblər. Onlardan 14-ü sonradan dünyasını dəyişib. Müəyyən edilib ki, qanda Omeqa-3 səviyyəsi nə qədər yüksəkdirsə, ölüm ehtimalı da bir o qədər azdır.

Müsahibimiz vitamin çatışmazlığını bərpa etməyin yolları barədə deyib: "Ev şəraitində pəncərədən və ya pərdə arxasından D vitamini qəbul etmək olmaz. Mümkün qədər açıq havada günəşin ultrabənövşəyi şüaları qəbul edilməlidir. Həftədə iki-üç dəfə balıqla qidalanmaq orqanizmi Omeqa-3-lə təmin etmək üçün kifayətdir. Eyni zamanda qoz, kətan toxumu, yumurta, göbələk və avakado Omeqa-3-lə zəngin qidalardır".

Pediatrlar Omeqa-3 yağının üç yaşına qədər uşaqlara dərman şəklində verilməməsini tövsiyə edirlər. Mütəxəssislər bildirirlər ki, qış aylarında olduğuna və sürətlə yayılan infeksion xəstəliklə mübarizə aparıldığına görə indi orqanizmin vitaminlərə ehtiyacı daha çoxdur. Ona görə də vitamin tərkibli qidalardan daha çox istifadə etmək məsləhətdir.

## ELAN

**Bayramov Şirin Musa oğlunun adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.**

# "Çelsi"də ciddi itki



"Çelsi" ciddi itki ilə üzləşib. Qol.az xəbər verir ki, paytaxt təmsilçisinin müdafiəçisi Tyaqo Silva zədələnib. Komandanın baş məşqçisi Tomas Tuhel İngiltərə mətbuatına açıqlamasında Premyer Liqanın 22-ci turunda "Tottenhem"lə matçda (1:0) zədələnən Silvanın son durumunun tibbi müayinədən sonra bilinəcəyini deyib.

Həkimlərin ilkin rəyinə görə, Silva Premyer Liqanın 23-cü turunun "Şeffild Yunayted"lə fevralın 7-də keçiriləcək matçı buraxacaq.

# İstanbul əhalisi azalır



2001-ci ildən bu günədək İstanbulda əhali sayında ilk dəfə azalma müşahidə olunub. Bu barədə Türkiyənin Statistika Komitəsindən bildirilib. Məlumata əsasən, 2019-cu ildə İstanbulda əhali sayı 15 milyon 519 min 267 nəfər olub. Ötən il isə bu rəqəm 56 min 815 nəfər azalaraq 15 milyon 462 min 452 nəfər təşkil edib. Onların 7 milyon 750 min 836-sı kişilər, 7 milyon 711 min 616-sı qadınlardır. 2020-ci ildə əhali sayı 83 milyon 614 min 362 nəfər olan Türkiyənin ən sıx şəhəri 18,49 faizlə İstanbul olub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**